# DİQQƏT!

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 185 (6149) 20 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev: “İndi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir”

Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib



Bax 6

## Mehriban Əliyeva: “Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm”



*Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” hesabında edilən paylaşımda deyilir...*

Bax 3

## Hikmət Hacıyev: “Biz bu münaqişəni gələcək nəsillərə saxlamamalıyıq”



*Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Bizim məqsədimiz Azərbaycanın suveren ərazilərini bərpa etməkdir. SİA xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Onun sözlərinə görə, münaqişə artıq öz həllini tapmalıdır: “Biz bu münaqişəni gələcək nəsillərə saxlamamalıyıq”...*

Bax 5

## XİN: Almaniyalı deputatların Qarabağa qanunsuz səfərlərinə görə bu ölkənin XİN-inə nota göndəriləcək

*Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Almaniya üçün radikal sağçı Alternativ (AfD) partiyasının Bundestaq və Brandenburq federal torpağının Landtaqındakı fraksiyalarının nümayəndələrindən...*



Bax 8

## YAP 50-dən çox siyasi partiya və beynəlxalq təşkilata müraciət ünvanladı

*Yeni Azərbaycan Partiyası işğalçı erməni silahlı qüvvələri tərəfindən Gəncə şəhərində baş verən terror aktı ilə əlaqədar Avropa Xalqları Partiyasına, Mərkəzçi Demokrat İnternasionalına, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına, İslam Əməkdaşlıq Təşkilatına, Avronest Parlament Assambleyasına, Milli Demokratiya İnstitutuna, İqtisadi Əməkdaşlıq Təşkilatına, Ərəb Dövlətləri Liqasına, İslam Dünyası Təhsil...*

Bax 5

## Adil Əliyev: “Ermənistan artıq uduzmuş dövlətdir”



Bax 10

## Rasim Quliyev: “”Status-kvo”nun qalmasına görə birbaşa həmsədrlər günahkardır”



Bax 5

## “AfD”-nin Hitlerizm ideologiyası və terrorçu Ermənistan sevgisi




Bax 11

# “Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq”

*Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:***

-Xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop: Xoş gördük.

Prezident İlham Əliyev: Çox şadam ki, Siz gəlmisiniz. Ölkəmiz üçün bu çətin bir dövrdə Sizin gəlişiniz xüsusi məna daşıyır. Bu, bir daha Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq münasibətinin təzahürüdür, həmrəyliyin təzahürüdür. Biz bu hadisələr baş verəndən dərhal sonra Türkiyənin dəstəyini hiss etdik, bu gün də hiss edirik. Əziz qardaşım, hörmətli Prezident çox müsbət və çox dəqiq açıqlamalar vermişdir. Bu açıqlamalar Azərbaycan xalqını çox məmnun etdi, bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq. Mən bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, əgər bu açıq mövqe göstərilməsəydi, bu gün başqa qüvvələr bu işlərə qarışa bilərdi. Onsuz da Ermənistanın məqsədi bundan ibarətdir, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək istəyirlər və çox yanlış yoldadırlar. Çünki görürlər ki, bizim qarşımızda təkbaşına duruş gətirə bilmirlər. Döyüş meydanında biz onları məğlub edirik. Hər gün cəbhədən çox gözəl xəbərlər gəlir. Bu gün səhər mən yeni kəndlərin azad edilməsi haqqında məlumat vermişəm. Azərbaycan Ordusu zəfər marşındadır və qarşımızda duran bütün vəzifələr yerinə yetirilir.



Türkiyə dövlətinin və xalqının dəstəyi xüsusi önəm daşıyır. Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq. Həm Türkiyə Böyük Millət Məclisinin açıqlamaları, Sizin, hörmətli cənab Sədr, açıqlamalarınız, nazirlərin açıqlamaları, Türkiyədən adi vətəndaşlardan mənə gələn məktublar böyük həmrəyliyin təzahürüdür.

Bu mövqeyə, qardaşlıq mövqeyinə görə və gəldiyiniz üçün bir daha Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, səfəriniz bizim qardaşlıq əlaqələrimizin tarixində yeni gözəl səhifə olacaqdır. Xoş gəlmisiniz.

x x x

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop: İnşallah. Xoş gördük, cənab Prezidentim. Əvvəla, Türkiyədən hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırmaq istəyirəm. Türkiyə Böyük Millət Məclisindən deputatlarımızın hamısının Sizə salamları var, parlamentimizin duaları sizinlədir.

Burada fərqli partiyalardan dostlarımız var. Biz təmsilçilik qabiliyyəti yüksək olan bir heyətlə gəldik, dəstəyimizi ifadə etmək istədik.

Bunu Türkiyədə hər zaman deyirik, Tovuz hücumlarında da Məclisimizdə dörd siyasi partiya bir açıqlama vermişdi, 27 sentyabrdan sonra da bir daha açıqlama verdi. Amma bütün bunları bir də Bakıda təkrarlamaq, söyləmək istədik. Millətimizin də dəstək və duaları daim Azərbaycanladır, Sizinlədir. Azərbaycanın uğuru, müvəffəqiyyəti üçün dua edirik, o sevindirici xəbərləri aldıqca da bütün millət olaraq sevinirik. Allah müvəffəq etsin, zəfər nəsib etsin.



Təbii ki, Türkiyənin Azərbaycana dəstəyinin təməli dostluq və qardaşlıqdır. Zati-aliləri, Sizin də dediyiniz kimi, dünyada Azərbaycan-Türkiyə dostluğuna, qardaşlığına bənzər ikinci ölkə yoxdur. “Bir millət, iki dövlət” deyirik. Bunun tarixi əsasları var. Axşam Şəhidlər xiyabanında idik, orada Türkiyədəki 34 vilayətimizdən şəhidlər var, onlar burada uyuyurlar, adları məzar daşlarında var. Biz Türkiyə olaraq Azərbaycanın çətin günündə burada - Azərbaycanın yanında olmuşuq, onun kədəri bizim kədərimiz, sevinci isə bizim sevincimizdir. Bu, həm də sizin üçün də eynidir. Siz Yunanıstan səfirini qəbul edərkən verdiyiniz açıqlama Türkiyədə çox böyük diqqətlə, sevinclə izlənildi və çox yüksək dəyərləndirildi.

Bizim Azərbaycana dəstəyimiz təkcə dostluqla bağlı deyil, bu mübarizə Azərbaycanın haqlı mübarizəsidir. Həm tarixən haqlıdır, çünki Dağlıq Qarabağ tarix boyunca, yüz illərlə həmişə Azərbaycan torpağı, Azərbaycan Vətəninin bir hissəsi olub. Sovet dövründə də, Çar Rusiyası dövründə də belə olub. Azərbaycan beynəlxalq hüquq baxımından da haqlıdır.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Prezident İlham Əliyev: Cəbrayıl rayonunun 13 kəndi azad edilib



***Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!***

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” hesabında bildirib.

# "Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib!"

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*



### "Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

***Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.***

Prezident İlham Əliyevin müraciəti

-Əziz həmvətənlər.

Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin!

Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz.

Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir.

Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanındadır.

Bu günlər ərzində - 27-si sentyabr tarixindən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulubdur. Sadəcə olaraq, vətəndaşlarımızın diqqətinə bəzi rəqəmləri çatdırmaq istəyirəm. Bildirməliyəm ki, çatdıracağım siyahı natamamdır, düşmənin daha böyük həcmdə texnikası məhv edilib və əlbəttə ki, döyüş zamanı bunun dəqiq hesablanması mümkün deyil. Ancaq gətirəcəyim rəqəmlər əyani şəkildə göstərir ki, biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq.

İndi isə son günlər ərzində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş Ermənistan texnikasının bir hissəsini xalqımın diqqətinə çatdırıram. Beləliklə, məhv edilmiş Ermənistan texnikası: tank - 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını - 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlifçaplı toplar 190, "Uraqan" sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi "Elbrus" 2, "Toçka-U" 1, OSA zenit raket kompleksi 35, TOR zenit-raket kompleksi 3, KUB və "Kruq" zenit raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb. Hər bir adam, hər bir mütəxəssis bu texnikanın qiymətini açıq mətbuatdan götürə bilər və bu suallara biz cavab tapmalıyıq və tapacağıq.

Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi.

Ardı Səh. 4



## Mehriban Əliyeva: "Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm"

***Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilir:***

"Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

# "Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib!"

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

Əvvəli Səh. 3

Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir.

> *"Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq"*

Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik.

Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar. Bu gün məndə olan məlumata görə, hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur.

Bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib.

Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır. Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!

Füzulini təslim etmək istəmirdi. Halbuki başa düşürdü ki, bunu saxlaya bilməyəcək. Cəbrayılı təslim etmək istəmirdi. Dünən, srağagün və bu gecə Cəbrayıl istiqamətində də uğurlu əməliyyatlar keçirilibdir, strateji yüksəkliklər götürülübdür. Bu haqda hələ ki, mən bir şey demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Ancaq bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək. Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz. Bunu hər kəs bilməlidir. Bizim qabağımızda heç kim dura bilməz. Çıxsın yırtıcı Ermənistan dövləti bizim torpağımızdan. Ondan sonra atəşkəs təmin edilər. Atəşkəs elan olundu, ondan bir gün keçmədi Gəncəni bombaladılar. Özü də haranı? Yaşayış massivlərini. Bu gün də haranı vurdular? Yenə də yaşayış massivlərini. Nə vaxt vurdular? Gecə saatlarında ki, daha çox insan həlak olsun.

Bu, insanlığa qarşı cinayətdir. Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq.

"Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən "Qarabağ Ermənistandır". Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, "Qarabağ Ermənistandır". Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən.

> *"Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar"*

Niyə demirsən "Qarabağ Ermənistandır". Qorxursan, qorxacaqsan. Bəs, Azərbaycan xalqını təhqir edəndə, "Qarabağ Ermənistandır və nöqtə" deyəndə niyə belə cəsarətli idin? Kimə güvənirdin? Kimə arxalanırdın? Bilmirdinmi ki, gün gələcək bu əməllərə görə cavab verəcəksən. Bu gün gəlibdir və gəlir. Şuşaya Livandan, başqa ölkələrdən erməniləri gətirib məskunlaşdırmaq hərbi cinayətdir, Cenevrə Konvensiyasına ziddir. Nümayişkaranə bunu edirlər, televiziyada göstərirlər, necə ki, ermənilər gəliblər bizim qədim torpağımızda yaşamağa, işləməyə. İndi baxım görüm kim gələcək Şuşaya məskunlaşmağa. Cəbrayıla yeni yol çəkirdin Ermənistandan. Nə üçün? O bölgəni, Arazboyu bölgəmizi qanunsuz yollarla zəbt edib, ondan sonra orada erməniləri məskunlaşdırmaq üçün? Bizi fakt qarşısında qoymaq istəyirdin. Ermənistanda əhali az olduğu üçün xaricdən erməniləri müxtəlif yollarla, o cümlədən onları aldadaraq gətirib orada məskunlaşdırmaq nə məqsədi daşıyırdı? Bizim tarixi torpaqlarımızı əbədi işğal altında saxlamaq, əbədi işğalı təmin etmək və bizim torpaqlarımızı erməniləşdirmək məqsədi? Baxın, onlar Füzuliyə hansısa bir eybəcər ad veriblər. Bu ad sizin başınıza dəysin. Bu ad cəhənnəmə getsin. Bu ad yoxdur artıq. Madagiz adı da yoxdur - Suqovuşandır. Biz başqa tarixi adlarımızı da bərpa edəcəyik. Şuşaya dırnaqarası qurumun parlamentini köçürürdün bəs. Get köçür, görüm necə köçürəcəksən! O saxta, quldur dəstə başçısının "andiçmə mərasimi"nin keçirildiyi yer nə gündə olub. Darmadağın etmişik oranı, darmadağın. Yeddi şərt qoyurdun bizim qarşımızda. Ultimatumla danışırdın. İndi görüm, hansı şərti qoyursan. Nə oldu bəs? Onun-bunun ətəyindən yapışıb, onun-bunun ayağının altına yıxılıb imdad diləyirsən ki, Azərbaycanı durdurun. Azərbaycana deyin ki, daha dayansın. Çıx torpağımızdan dayanaq. Rədd ol torpağımızdan dayanaq. Mən bunu demişəm, gizlətmirəm. Azərbaycan xalqı da bunu bilir, beynəlxalq aləm də bunu deyir. Hər gün bunu deyirəm, çıx de ki, sabah mən buradan çıxıram, dayanırıq. Bizə qan tökmək lazım deyil. Bizə torpaq lazımdır. Biz bu torpağı istənilən yolla alacağıq. Hər kəs bunu bilsin. Artıq son günlərin tarixi bunu göstərir.

Azərbaycan xalqını təhqir etmək sizə çox baha başa gəlir, Ermənistan rəhbərliyi, çox baha başa gəlir. Ermənistan əhalisi, nəhayət, bu kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməlidir. Artıq Ermənistanda hərbi komissarlıqlarda mitinqlər təşkil edilir, analar yolları kəsir, qoymurlar ki, uşaqları getsin başqa ölkənin torpağında ölsün. Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm: Qoymayın uşaqlarınızı! Nə işi var onların bizim torpağımızda? Öz ölkənizdə yaşayın. Bizim sizinlə heç bir işimiz yoxdur. Gedin yaşayın öz ölkənizdə, nə edirsiniz edin, amma bizim torpaqdan çıxın. Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. Biz isə haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!

Biz döyüş meydanında gücümüzü göstərdik, həm düşmənə, həm də bütün dünyaya. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir, Azərbaycan xalqının istedadıdır və bizim əldə etdiyimiz uğurlardır.

Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik. Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

# YAP 50-dən çox siyasi partiya və beynəlxalq təşkilata müraciət ünvanladı

Yeni Azərbaycan Partiyası işğalçı erməni silahlı qüvvələri tərəfindən Gəncə şəhərində baş verən terror aktı ilə əlaqədar Avropa Xalqları Partiyasına, Mərkəzçi Demokrat İnternasionalına, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına, İslam Əməkdaşlıq Təşkilatına, Avronest Parlament Assambleyasına, Milli Demokratiya İnstitutuna, İqtisadi Əməkdaşlıq Təşkilatına, Ərəb Dövlətləri Liqasına, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına, Türkiyənin Ədalət və İnkişaf Partiyasına, "Yedinaya Rossiya" Partiyasına, Çin Kommunist Partiyasına, Ədalət Naminə Pakistan Hərəkatına, Yaponiya Liberal-Demokrat Partiyasına və ümumilikdə 50-dən çox siyasi partiya və beynəlxalq təşkilata müraciət ünvanladı.

SİA-nın verdiyi məlumata görə, Müraciətdə bildirilir: "Məlumdur ki, 2020-ci il sentyabrın 27-də səhər saat 06-dan etibarən Ermənistanın hərbi qüvvələri 1994-cü ildən qüvvədə olan atəşkəs razılaşmasını kobud şəkildə pozaraq genişmiqyaslı hərbi əməliyyatlara başlamış, bütün təmas xətti boyunca Azərbaycanın mülki obyektlərini iriçaplı silahlardan və ballistik raketlərdən atəşə tutmuşdur. 27 sentyabr - 16 oktyabr arasında Ermənistanın silahlı qüvvələri döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Goranboy, Göygöl, Tərtər, Yevlax, Horadiz yaşayış məntəqələrini atəşə tutaraq qadın və uşaqlar daxil olmaqla, 70-ə qədər mülki şəxsi qətlə yetirmiş, 200-dən çox mülki şəxsi yaralamışlar. Yaralananlar içərisində qadın və uşağın olması diqqət çəkir.Bu hücumlar nəticəsində minlərlə şəxsi evə, eləcə də sosial infrastruktur obyektlərinə və yaşayış binasına ciddi zərər dəymişdir. Bundan əlavə, işğalçı Ermənistanın hərbi qüvvələri bölgə üçün böyük enerji və irriqasiya əhəmiyyəti daşıyan Mingəçevir Su Elektrik Stansiyasını, Avropanın enerji təhlükəsizliyinin əsasını təşkil edən və regionun iri strateji obyektləri sayılan Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Ceyhan neft boru xətlərini hədəf kimi seçərək bombalamışlar. Qeyd olunan şəhərlərə və digər yaşayış məntəqələrinə qarşı qadağan olunmuş "9N235", həmçinin "M85" bombalarından və "Kaset Sursatlar haqqında" Konvensiyaya (CCM) uyğun olaraq 2008-ci ildə qadağan olunmuş sursatlardan istifadə etmişdir.

Eyni zamanda, Ermənistan hərbi-siyasi hakimiyyəti tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə digər ölkələrdən muzdlu terrorçular gətirilərək dinc azərbaycanlı əhaliyə qarşı istifadə olunmuşdur. Onlar beynəlxalq humanitar hüququn ən elementar normalarına məhəl qoymayaraq üzərində ağ bayraq qaldırılmış Azərbaycanın tibbi maşınlarını atəşə tutmuşdur.

Yeni Azərbaycan Partiyası hesab edir ki, tərəfləri daim atəşkəsə çağıran beynəlxalq ictimaiyyət Ermənistanın beynəlxalq hüquqa və humanitar atəşkəs prinsiplərinə zidd olan bu əməllərinə münasibət bildirməlidir. Humanitar atəşkəs rejiminin qüvvəyə minməsindən cəmi bir neçə saat sonra Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrimizin hədəfə alınması, eləcə də Azərbaycan Silahlı Qüvvələrinə qarşı son hücumlar Ermənistanın beynəlxalq ictimaiyyətə hörmətsizliyinin, eləcə də bu ölkə rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının göstəricisidir.

Ona görə də Yeni Azərbaycan Partiyası olaraq beynəlxalq qurumları, o cümlədən tərəfdaş siyasi partiyaları və beynəlxalq siyasi partiya təşkilatlarını Ermənistanın humanitar atəşkəsi pozan əməllərini və dinc əhaliyə qarşı hücumlarını qəti şəkildə pisləməyə çağırırıq".

# Hikmət Hacıyev: "Biz bu münaqişəni gələcək nəsillərə saxlamamalıyıq"



Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Bizim məqsədimiz Azərbaycanın suveren ərazilərini bərpa etməkdir. SİA xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Onun sözlərinə görə, münaqişə artıq öz həllini tapmalıdır: "Biz bu münaqişəni gələcək nəsillərə saxlamamalıyıq".

Prezidentin köməkçisi bildirib ki, Ermənistan müxtəlif ölkələrdən muzdlular gətirərək Azərbaycana qarşı istifadə edir: "Eyni zamanda, Ermənistan öz diasporasının köməkliyi ilə "qara bazar"dan silahlar alaraq mülki təyyarələr vasitəsilə Ermənistana daşıyır və həmin silahlardan Azərbaycanın mülki əhalisinə qarşı istifadə edir. Ermənistana mülki təyyarələr vasitəsilə silahların daşınması beynəlxalq qanunların, o cümlədən beynəlxalq mülki aviasiya qaydalarının kobud şəkildə pozulmasıdır. Beynəlxalq təşkilatlar Ermənistanın pozucu hərəkətlərinin qarşısını almalıdır". Prezidentin köməkçisi daha sonra bildirib ki, Ermənistan Azərbaycanın mülki əhalisini atəşə tutmaqda davam edir: "Ermənistan dövlət səviyyəsində Azərbaycanın mülki əhalisinə qarşı terror aktları həyata keçirir. Oktyabrın 10-da Ermənistanla Azərbaycan arasında humanitar atəşkəs razılaşmasının imzalanmasına baxmayaraq, bir qədər sonra münaqişə zonasından kənarda yerləşən Gəncə şəhərində mülki əhali atəşə tutulub. Burada hərbi hədəf yox idi. Sadəcə, onlar bilərəkdən dinc vətəndaşları qətlə yetirmək üçün həmin əraziləri atəşə tutublar."

Onun sözlərinə görə, Ermənistan Azərbaycanın digər şəhərlərini, o cümlədən, sənaye şəhəri olan Mingəçeviri də atəşə tutub: "Onlar Gəncədə böyük vəhşilik törədib. Ermənistan dövlət səviyyəsində Azərbaycanın mülki əhalisinə qarşı terror aktları həyata keçirir. Bununla onlar xalqımızın iradəsini qıra bilməyib. Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə davam edir. İkinci dəfə oktyabrın 18-də humanitar atəşkəs razılaşmasına baxmayaraq, Ermənsitan öz xislətini göstərədi və yenidən mülki əhalimizi atəşə tutdu. Bu, Ermənistanın terrorçuluq mahiyyətini ortaya qoyur".

# La Tribune: Türkiyə münaqişədə tərəfkeşlik etmir

Azərbaycan Dağlıq Qarabağ separatçıları ilə döyüşlərə heç bir muzdlu cəlb etməyib. Dağlıq Qarabağdakı döyüşlərdə Türkiyənin hərbi müdaxiləsi yoxdur. Mənə heç bir sübut, dəlil təqdim olunmayıb. Heç bir dəlil yoxdursa, düşünürəm ki, bu söz-söhbət bağlanmalıdır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin "France 24" televiziya kanalına verdiyi müsahibəyə istinadən "La Tribune" portalında yazılan "Aliyev France 24-ə deyib ki, Dağlıq Qarabağ münaqişəsində muzdlular yoxdur" adlı məqalədə bildirilib. Portalda Azərbaycan Prezidentinin söylədiyi əsas məqamlar bir daha oxucuların diqqətinə çatdırılıb.




"100 minlik ordumuz var, muzdlulara ehtiyacımız yoxdur və döyüş meydanındakı rəşadətimiz göstərir ki, ordumuz özü torpaqlarımızı tək başına azad etməyə qadirdir", - deyə Azərbaycan Prezidentinin sözlərindən sitat verilib. Azərbaycan Prezidentinin Fransa Xarici İşlər naziri Jan-İv Lö Dryanın sözlərinə cavab olaraq, Türkiyənin münaqişədə tərəfkeşlik etmədiyini vurğuladığı diqqətə çatdırılıb. Azərbaycan Prezidenti deyib: "O, səhv edir. Türkiyənin hərbi müdaxiləsi ilə bağlı söylənilənlər də başqa bir yanlış informasiyadır. Türkiyənin hərbi texnikasından istifadə edirik, bu faktdır, ancaq həmçinin Rusiyanın, İsrailin və digər ölkələrin də hərbi texnikasından istifadə edirik". Məqalədə Azərbaycanın ərazisi olan Dağlıq Qarabağda döyüşlərin sentyabrın 27-də başladığı vurğulanıb.

# Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində törədilən müharibə cinayəti beynəlxalq ictimaiyyət tərəfindən pislənilir



Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı yeni hərbi təcavüzü, Ermənistan silahlı qüvvələri tərəfindən mülki şəxslərin və infrastrukturun, o cümlədən münaqişə zonasından uzaqda yerləşən şəhər və rayonların atəşə tutulması, Gəncə şəhərinə edilən raket zərbələrini pisləyir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Pakistan Senatının Azərbaycanla dostluq qrupunun rəhbəri Talha Mahmud "Twitter" səhifəsində bununla bağlı paylaşım edib. Talha Mahmud paylaşımında yazıb ki, Azərbaycanın Gəncə, Mingəçevir şəhərlərinin və digər yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması qəti şəkildə qınanmalıdır. O vurğulayıb ki, uzun müddətdir davam edən münaqişə ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi əsasında dərhal həll edilməlidir.

Avropa İttifaqının xarici xidmətinin rəsmi nümayəndəliyinin veb-səhifəsində isə bildirilir ki, Aİ Azərbaycanın Gəncə şəhərinə qarşı həyata keçirilən mülki insanların həlak olması və yaralanması ilə nəticələnən hücumu pisləyir. Qeyd olunur ki, mülki şəxslərin və obyektlərin hədəfə alınmasına son qoyulmalıdır.

# Rasim Quliyev: ""Status-kvo"nun qalmasına görə birbaşa həmsədrlər günahkardır"



"Ümumiyyətlə, Ermənistanın nə qədər təxribatçı, terrorçu dövlət olmasını sübut edən əməllərdən biri onun xaricdəki diasporudur. Yəni Ermənistan xaricdən idarə olunur. Təbii ki, bu diasporun da siyasəti, işi, ideologiyası terrorizmdir, təxribatdır. Ermənistanın BMT-nin məlum dörd qətnaməsini icra etməməklə bağlı özündən razılığı, arxayınçılığı məhz o diasporun hesabınadır". Bunu SİA-ya "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

"Məsələn, ATƏT-in Minsk Qrupunun həmsədr olan ölkələrindən biri bizi atəşkəs barədə razılığa dəvət edir. Ermənistan isə hay-küy salırdı və Azərbaycanın razılaşmayacağını zənn edirdi. Amma proseslər gözlənilən kimi olmadı. Bu gün Azərbaycanın müdrik, praqmatik və rasional düşüncəli bir Lideri var. Dövlət başçısı onların avantürasını çox gözəl bilirdi və hər zaman da onları qabaqlayır. Belə ki, atəşkəs barədə çağırışa Azərbaycan tərəfi əməl etdi. Amma bizi Moskvada atəşkəsə çağıran Ermənistan XİN rəhbərinin mülki, VİP təyyarəsinə silahlar, raketlər doldurulub Ermənistana göndərildi. Həmin günün səhəri isə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə raket atəşi ilə vuruldu. Bu nəyi göstərir. Demək olmaz ki, bunu Rusiya dövləti edib. Amma hər kəs də bilir ki, Rusiyada erməni diasporu güclüdür. Bu mənada hesab edirəm ki, həmin diasporun fəaliyyətinə heç olmasa müəyyən dövlət nəzarəti olmalıdır. Digər tərəfdən Fransa dövləti açıq-aşkar Ermənistanı dəstəklədi. Əgər ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətlərinin birindən diaspor, digərindən isə dövlət səviyyəsində Ermənistana dəstək gəlibsə, bu o deməkdir ki, işğalçı ölkəni BMT-nin qərarlarını icra etməməyə sövq edən amil erməni diasporudur. Hətta deyərdim ki, "status-kvo"nun qalmasına görə birbaşa həmsədrlər günahkardır", - deyə, R.Quliyev fikrini tamamlayıb.

*Ceyhun Rasimoğlu*

# İlham Əliyev: "İndi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir"

## Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib. AZƏRTAC videomüsahibəni təqdim edir.***

-Hər vaxtınız xeyir. Biz Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşürük. Mən, Yuliya Şarifulina TASS agentliyi adından cənab Prezidentə Dağlıq Qarabağ ətrafında vəziyyətlə bağlı bir neçə sual verəcəyəm.

***- Salam, cənab Prezident.***

Prezident İlham Əliyev: Salam.

***- Sağ olun ki, bizi qəbul etməyə razılıq vermisiniz. Aydındır ki, son vaxtlar Siz kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələr vermisiniz. Lakin vəziyyət sürətlə dəyişir. Biz bunu hər gün müşahidə edirik. Biz bəlkə də hələ zamana uyğun olmayan və Sizin ölkənin mövqeyini daha yaxşı anlamaqda bizim auditoriyaya kömək edəcək bəzi baza məsələləri üzərində daha ətraflı dayanmaq istərdik. Biz hamımız Moskvada 11 saatlıq danışıqlar marafonunun şahidləri olduq. Siz necə hesab edirsiniz, əldə olunmuş atəşkəsin tamamilə yerinə yetirilməsinə qayıtmaq mümkündür, yoxsa həmin atəşkəs tamamilə pozulub?***

- Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və hazırlaşırdıq. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozdu. Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar həddsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkəranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi. Bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin görünür, onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. Yeri gəlmişkən, yaxın vaxtlarda, iki gün bundan əvvəl onlar eyni cür hərəkət etdilər. Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər.

Vəziyyətin hələ də qaynar fazada olması bizim təqsirimiz deyil. Mən dəfələrlə demişəm ki, Azərbaycan nizamlama prinsiplərinə sadiqdir. Bu prinsiplər çoxillik danışıqlar prosesində işlənib hazırlanıb. Mən öz açıq çıxışlarım və bu günlərdə mətbuat nümayəndələri ilə əlaqələrim çərçivəsində təsdiq etmişəm ki, əgər Ermənistan danışıqlar məcrasında özünü konstruktiv apararsa, biz günü sabah hərbi əməliyyatları dayandırmağa hazırıq. Lakin Yerevandan eşitdiyimiz bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə ziddidir. Ermənistan rəhbərliyi lap yaxın vaxtlarda baza prinsiplərini faktiki olaraq təkzib edən çox təhlükəli bəyanatlarla çıxış edib. Prinsip etibarilə, Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib. Bu prosesi zəifləmə yox, məhz pozmağa. Mən onların çoxsaylı bəyanatları, təhrikçi hərəkətləri və Azərbaycanın dinc əhalisinə hücumları barədə danışmışam. Buna görə də, əgər erməni tərəfi nəhayət başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq.

***- Sizin ölkəniz hərbi xətt üzrə təcili görüş keçirilməsinin zəruri olması fikrinə razıdırmı? Rusiya bunu deyir. Yəni, əgər Sizin ölkə razıdırsa, onda həmin görüş hansı formatda, hansı tərəflərin iştirakı ilə keçirilə bilərdi?***

- Bilirsinizmi, indiki halda birinci dərəcəli məsələ Ermənistan və Azərbaycan rəhbərliklərinin siyasi iradəsidir. Bizim tərəfdən bu iradə var. Mən bu gün öz mövqeyimizi bir daha təsdiq edirəm. Özü də bunu elə bir vaxtda təsdiq edirəm ki, işğal altında olan ərazilərdə daha 13 yaşayış məntəqəsinin azad olunması bu gün elan edilib. Elə bir vaxtda ki, erməni ordusu, əslində, fiaskoya uğrayır. Azərbaycan döyüş meydanında öz üstünlüyünü nümayiş etdirir. Lakin bununla belə biz, qan tökülməsinin davam etməsini istəmədən, insanların həyatını qoruyub saxlamağı arzu edərək bu məsələni siyasi yolla həll etməyə hazırıq.

Hərbçilər arasında əlaqələr məsələsinə gəldikdə isə bu məqamlar baza prinsiplərində dəqiq müəyyən edilib və biz baza prinsiplərinə sadiqik, onların barəsində danışmışam, zənnimcə, təkrarlamağın mənası yoxdur. Bunlar Ermənistan tərəfindən işğal edilmiş ərazilərin qaytarılması, Dağlıq Qarabağın gələcəyinə dair danışıqlar, qaçqınlar və məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qaytarılmasıdır. Bütün bunlar baza prinsiplərində yazılıb. Ermənistan tərəfi də müxtəlif mərhələlərdə bütün bunlara razılıq verib. Buna görə indi sizin müraciət etdiyiniz məsələ baza prinsiplərində razılaşmanın sonundadır. İşğala son qoyulması ilə bağlı bütün məsələlər nizamlandıqda xarici sülhməramlı qüvvələrin iştirakı nəzərdə tutulurdu. Lakin nizamlanması tələb edilən əsas məsələlər razılaşdırılmadığına görə, tərəflər bu məsələyə hələ də başlamayıblar. Buna görə həmin qüvvələrin kimlərdən ibarət olacağı, orada hansı beynəlxalq qurumların, hansı ölkələrin təmsil olunacağı barədə dəqiq anlayış yox idi. Odur ki, bütün bu məsələlər müzakirə edilmirdi. Lakin aydın idi ki, sülhməramlı qüvvələrin tərkibi Azərbaycan və Ermənistan ilə razılaşdırılmalıdır. Həmin qüvvələrin dislokasiya yerləri də müəyyən edilməmişdir. Ona görə, bu gün təmas xəttinin olmadığı, status-kvonun pozulduğu, - onu biz pozmuşuq və bunu Rusiya, ABŞ və Fransa dövlət başçılarının bəyanatları, status-kvonun qəbuledilməz olması barədə dövlət başçılarının dəfələrlə səsləndirdiyi bəyanatların çərçivəsində etmişik. Biz bu bəyanatları eşitmişik, lakin onların implementasiyasını görməmişik. Buna görə biz özümüz onu implementasiya etdik. Yəni, status-kvo yoxdur, təmas xətti yoxdur.



**"Erməni tərəfin alçaldılmış vəziyyətdə olması bizə aydındır. Onlar bütün bu illər ərzində qürrələnir, özlərinin "məğlubedilməz ordusu" ilə lovğalanırdı. Biz onları torpaqlarımızdan elə qovduq ki, dabanlarına tüpürüb qaçdılar"**

*Ardı Səh. 7*

# İlham Əliyev: "İndi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir"

## Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib

Əvvəli Səh. 6

Hərbi müşahidəçilər texniki baxımdan necə və harada yerləşdirilə bilər? Axı döyüş meydanında vəziyyət hər gün dəyişir. Hansısa xarici müşahidəçilər oraya gələndə harada dayanacaqlar? Haradasa dağlarda, vadilərdə, körpülərin üstündə? Yəni, bütün bunlar çox ətraflı işlənib hazırlanma tələb edir. Bu, öz hərbi kontingentini oraya göndərməyi lazım bilənlər üçün böyük riskdir. Ona görə də bütün bunlar - sülhməramlıların tərkibi, mandatı, müddəti, məqsədləri razılaşdırılmalıdır. Əlbəttə, bütün bunlar baza prinsipləri çərçivəsində olmalıdır, həmin prinsipləri isə artıq dediyim kimi, biz qəbul edirik, amma erməni tərəfi təkzib edir.

***- Lakin hər halda, vəziyyət tələb edərsə, Sizin ölkəniz rusiyalı hərbi müşahidəçilərin yeridilməsinə razılaşarmı? Əgər rusiyalılar olmasa, bu missiyada daha hansı ölkələr iştirak edə bilərdi? Siz hansı ölkələrin iştirakına qəti etiraz edərdiniz?***

- Bilirsiniz, ABŞ və Fransa kimi Rusiya da ATƏT-in Minsk qrupunun həmsədridir və bu mandat çərçivəsində ölkələr öz arasında çox sıx qarşılıqlı fəaliyyət göstərir. İndi, münaqişənin qaynar fazası dövründə mən həm Qərb mətbuatında, həm də Rusiya mətbuatında müşahidə edirəm ki, Dağlıq Qarabağ məsələsi həmin ölkələr arasında fikir ayrılığı doğurmayan yeganə məsələdir. Yəqin ki, bu, həqiqətən belədir. Ona görə ki, haraya baxsaq hər yerdə sanksiyalar, qarşıdurmalar, narazılıqlar və sair, özü də qarşılıqlı. Buna görə, əlbəttə, mən əminəm ki, həmsədrlik formatı çərçivəsində bu məsələ həmin ölkələr arasında razılaşdırılmalıdır. Bu məsələ razılaşdırılandan sonra tərəflərə təqdim edilməlidir. Yəni, bütün bunlar baza prinsiplərində də nəzərdə tutulmuşdur. Ona görə sülhməramlıların və ya indi adlandırmaq istədikləri kimi desək, müşahidəçilərin kimlər olacağını biz müəyyən etməyəcəyik. Bunu ATƏT-in Minsk qrupunun həmsədrləri təklif edəcəklər. Azərbaycan və Ermənistan isə öz tərəflərindən bu və ya digər ölkəyə veto qoya, ya da razılaşa bilər. Buna görə mən düşünmürəm ki, bu məsələnin birtərəfli qaydada həlli hansısa hərbi kontingentin müəyyən edilməsi üçün üç həmsədr ölkə arasında əməkdaşlığın ruhuna uyğun olardı. Ən başlıcası, onlar harada olacaq? Budur məsələ. İş onda deyil ki, Azərbaycan razılaşacaq və ya razılaşmayacaq. Biz mandatı - onun, necə deyərlər zaminini, funksiyalarını, yerləşdiyi məkanı, fəaliyyətini bilməliyik. Onlar dağlarda və ya boş bir sahədə dayanıb kimin haraya atəş açmasını müşahidə edəcəklər?

**"Biz də sülh istəyirik, lakin Ermənistandan fərqli olaraq, biz öz qanuni ərazilərimizi də istəyirik"**

Əvvələn, bu, təhlükəlidir. İkincisi, məsələn, atəşkəsi kimin pozduğunu müşahidə etmək üçün hətta onu kimin pozduğu müəyyən edilsə belə, sonra nə olsun? Həmin insanları məsuliyyətə cəlb edəcəklər? Hansısa cinayət işləri açılacaq? Buna görə, ilk növbədə, baza prinsiplərinin implementasiyası qaydası müəyyən edilməlidir. Erməni tərəfi, baş nazirin şəxsində bu prinsiplərə sadiqliyini dəqiq təsdiq etməlidir. Erməni tərəfi isə baş nazirin şəxsində hər şeydən danışır, amma bu barədə danışmır. Rusiya KİV-lərinin nümayəndələri ilə bizim paralel əlaqələrimiz çərçivəsində mən aydın demişəm ki, biz işğala son qoyulmasını, erməni və azərbaycanlı əhalinin əvvəlki yaşayış yerlərində birgə yaşamasını, azərbaycanlıların Şuşaya, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər yaşayış məntəqələrinə qaytarılmasını nəzərdə tutan baza prinsiplərinə sadiqik. Ermənistanın baş naziri yalnız təyini-müqəddərat barədə danışır. Yəni o, bu prinsipləri qəbul etmir, daha əvvəl özünün "Qarabağ Ermənistandır və nöqtə" kimi və digər səmərəsiz bəyanatları ilə əslində danışıqlar prosesini pozub. Onda bizə nə təklif edilir? 30 il mövcud olmuş və heç bir nəticəyə gətirib çıxarmamış status-kvoya yenidən qayıtmaq? Əgər biz görsək ki, erməni tərəfi deyir: bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, ikincisi, biz baza prinsiplərinə sadiqik, üçüncüsü, biz işğal edilmiş ərazilərdən öz qoşunlarımızı çıxarmağa razıyıq. Bax, onda gəlin müşahidəçilər məsələsini müzakirə edək. Mənim fikrimcə, bu məsələ tezliklə razılaşdırıla bilər. Lakin bunlar olmadıqda, bizə mahiyyət etibarilə nə təklif edilir? Dayanmaq? Bizim ərazilərimizin işğaldan azad olunmasını davam etdirməmək? Bizə təklif edirlər ki, Ermənistana güzəştə gedək, birtərəfli güzəştə, lakin əvəzində bizə heç nə təklif edilmir. Bu, ədalətsizlikdir. Hesab edirəm ki, Azərbaycana münasibətdə bu, düzgün olmayan yanaşmadır. Qoy, erməni tərəfi desin, qoy, Ermənistanın çox danışmağı xoşlayan və çox vaxt danışdıqları ölkəsinə çox baha başa gələn baş naziri desin ki, bəli, torpaqlar işğaldan azad ediləcək, qoşunlar çıxarılacaq. Mən qoşunların işğal edilmiş ərazilərdən çıxarılması qrafikinin verilməsini də təklif etmişdim. Sonra biz Moskvada bir günlük danışıqlar çərçivəsində bunu etməyin texniki baxımdan mümkün olmadığını başa düşdük və bu mövqedən geri çəkildik. Bununla belə, biz Ermənistan tərəfinin öz qoşunlarını işğal altında olan ərazilərdən çıxarmağa hazır olmasını eşitmədik. Bu, baş verən kimi belə adlandırılan müşahidəçilər məsələsinə baxıla bilər.

***- Prinsip etibarilə nizamlamanın ardıcıllığı barədə danışmalı olsaq, Azərbaycanda yeddi rayonun mərhələli şəkildə Azərbaycana qaytarılması, lakin Qarabağın qəti statusu müəyyən edilənə qədər Laçın dəhlizinin Ermənistanın nəzarəti altında saxlanılması şərti ilə nizamlamaya başlamağa razıdırlarmı?***

- Bilirsiniz, axı bütün bunlar baza prinsiplərində yazılıb və biz bunu qəbul etmişik. Bizim mövqeyimiz həmişə çox konstruktiv olub və biz həmişə demişik ki, bəli, biz anlayırıq, insanlar arasında əlaqə olmalıdır və Laçın dəhlizi baza prinsiplərinin tərkib hissəsidir. Bununla bərabər, axı baza prinsiplərində yazılıb ki, təkcə Laçın dəhlizi deyil, bütün kommunikasiyalar, həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiyalar açılır. Erməni tərəfi bu dəhlizin təhlükəsizliyinə zəmanət təqdim etməli idi. Ermənistanla Azərbaycan arasında sərhəddə kommunikasiyalar açılır. Həmçinin nəzərdə tutulurdu ki, Ermənistan Rusiya Federasiyasının ərazisinə maneəsiz yerüstü keçmək imkanına malik olacaq. Hazırda Ermənistan bu imkandan məhrum deyil, lakin bunu Azərbaycan ərazisindən keçməklə etmək qat-qat rahatdır və bu, hava şəraitindən, dağlarda qar yağmasından və sair məsələlərdən asılı deyil. Yəni, bütün bunlar Azərbaycan ərazilərinin işğaldan azad edilməsini, azərbaycanlı məcburi köçkünlərin qovulduğu bütün torpaqlara, təkcə yeddi rayona deyil, həm də Dağlıq Qarabağın ərazisinə, - münaqişə başlayana qədər orada yaşayan bütün əhalinin 25 faizi azərbaycanlılar idi, - qaytarılmasını nəzərdə tutan kompromis paketinin bir hissəsidir. Əlbəttə, Dağlıq Qarabağ ilə Ermənistan arasında Laçın dəhlizi vasitəsilə maneəsiz gediş-gəliş də nəzərdə tutulurdu. Biz bu mövqeyimizi bir daha təsdiq edirik.

***- Cənab Prezident, sirr deyil ki, Rusiya Yaxın Şərqdən, xüsusən Suriya və Liviyadan münaqişə zonasına silahlılar gətirilməsi barədə xəbərlərə görə narahatlığını bildirib. Siz bunu necə şərh edərdiniz?***

- Mən bu barədə dəfələrlə açıq demişəm ki, bu cür narahatlıqlar əsassızdır. İndiyə qədər bizə heç bir tərəf heç bir fakt təqdim etməyib. Bu cür bəyanatlar təkcə Rusiya tərəfindən deyil, Fransa tərəfindən də səslənirdi və biz xahiş etdik ki, bizim hansısa terrorçuları dəvət etməyimizə dair konkret faktlar, konkret sübutlar təqdim edilsin. İndiyə qədər bizə sözlərdən başqa heç bir fakt təqdim edilməyib. Nə Prezident kimi mənə, nə bizim xüsusi xidmətlərin rəhbərlərinə, nə də Müdafiə Nazirliyinin rəhbərlərinə heç bir fakt təqdim edilməyib. Yaxşı, əgər belə faktlar varsa, əgər bunu bəyan edirlərsə, nə üçün bizə faktlar təqdim edilmir. Hansısa qəzet məqalələrinə istinad edirlər. Bilirsiniz, indi nə istəsən yazmaq olar. Ona görə biz bu yanaşmanı əsla qəbul etmirik və bəyənmirik. Bu, birincisi.

İkincisi, mən artıq demişəm ki, Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından üstünlüyünü göstərib. Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri - bunu gizlətmirəm, özü tuşlanan "Spike" raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir "S-300" zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik. Prinsip etibarilə onlar pilotsuz uçuş qurğularına qarşı işləməlidirlər, lakin PUA-lar onları məhv edib. Məgər bunları Suriyanın harasındansa gəlmiş terrorçular ediblər? Yaxud bu gün, bizim Ordumuz əraziləri azad edərkən kim orada həmin terrorçuları görüb? Bunlar bizim əsgərlər və zabitlərdir. Bizim ehtiyatda olanları saymasaq, Azərbaycanın nizami ordusunda 100 min döyüşçümüz var. Biz hətta səfərbərlik elan etməmişik - nə üçün? Bizə lazım deyil. Biz qismən səfərbərlik elan etdik, neçə nəfər cəlb etməyimiz barədə rəqəmlər göstərmək istəmirəm. Lakin onlardan əsasən azad edilmiş ərazilərin monitorinqinin və həmin ərazilərə nəzarətin təmin olunması üçün istifadə edirik. Biz ehtiyatda olanları döyüşə buraxmırıq, hazırda onlar bizim azad etdiyimiz ərazilərdə yerləşirlər ki, erməni tərəfin təxribat cəhdlərinin qarşısını alsınlar. Buna görə faktlar yoxdur, zərurət yoxdur. Yalnız qeybətlər, şayiələr var. Açıq deyim, mən təəssüflənirəm ki, belə söz-söhbətlər yayılır, bununla da Azərbaycana qara yaxmağa cəhd göstərilir. Eyni zamanda, erməni tərəfin alçaldılmış vəziyyətdə olması bizə aydındır. Onlar bütün bu illər ərzində qürrələnir, özlərinin "məğlubedilməz ordusu" ilə lovğalanırdı. Biz onları torpaqlarımızdan elə qovduq ki, dabanlarına tüpürüb qaçdılar. Belə halda onlar, əlbəttə, güman etmək və ya təsəvvür etmək istəyirlər ki, bunu edən Azərbaycan Ordusu deyil, hansısa terrorçular və ya hansısa ölkələrdir. Bizim tərəfimizdən heç bir ölkə münaqişəyə cəlb edilməyib, bizim tərəfimizdə heç bir terrorçu yoxdur. Qarşı tərəfə, erməni tərəfinə gəldikdə isə biz Rusiya tərəfinə belə bir narahatlığımızı çatdırmışdıq ki, qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə çatdırılıb. Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır, - yeri gəlmişkən bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir. Biz Rusiya tərəfinə bildirmişik ki, bu işlərin qaçaqmalçılıq yolu ilə görüldüyünü güman edirik. Ona görə ki, Rusiyanın, həmçinin Fransa və ABŞ-ın da ATƏT-in Minsk qrupunun həmsədri və bitərəfliyi saxlamalı olan ölkə kimi münaqişənin aktiv fazası dövründə erməni tərəfini silahlandırmasına inanmağımız çətindir. Bizdə olan məlumata görə, bu sxemdə erməni mənşəli rusiyalı iri sahibkarların əli var, bu məsələdə beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var. Bizim Rusiyaya müraciətimiz, o cümlədən bu məsələnin araşdırılmasına yönəlmişdi. Ona görə ki, əgər Rusiya silahları qaçaqmalçılıq yolu ilə, necə deyərlər, kəş üsulu ilə nağd pulla ödənilir və daşınırsa, araşdırmaq lazımdır, bu, necə ola bilər? Bizim bu cür narahatlığımız var və bizim narahatlığımız faktlara əsaslanır. "Terrorçular" məsələsinə gəldikdə isə bunlar hamısı əsassız sözlərdir.

Ardı Səh. 8

# İlham Əliyev: “İndi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir”

## Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib

Əvvəli Səh. 7

***- İlham Heydər oğlu, amma 26 il ərzində dünya hər halda başa düşməyib ki, Ermənistan ilə Azərbaycan arasında Qarabağ üzrə yekun razılaşma necə görünə bilərdi. Siz bunu necə görürsünüz, hər halda sülh naminə hansısa güzəştlər mümkündürmü?***

- Bilirsiniz, mən yenə də demək istəyirəm ki, Minsk qrupunun həmsədrləri heç bir nəticəyə nail olmasalar da, - buna görə də haqlı olaraq Azərbaycan ictimaiyyətinin tənqidinə məruz qalırlar, - lakin mən son 17 ildə bu məsələ ilə praktik surətdə gündəlik rejimdə məşğul olan və bu illər ərzində vaxtının çox hissəsini məhz həll yolu tapmağa sərf etmiş bir insan kimi deməliyəm ki, Minsk qrupu səy göstərib, təkliflər verib, fəaliyyətsiz qalmayıb. Buna görə də mən bu cür əsassız ittihamları rədd edirəm. Bu, belə deyil. Ermənistanın keçmiş rəhbərliyi, bundan əvvəlki iki prezidenti ilə mənim əlaqələrim dövründə biz irəliyə çox böyük addımlar atmışdıq. Biz razılaşdırılması, ümumiyyətlə, qeyri-mümkün görünən məsələlərin razılaşdırılmasında irəliyə getmişdik. Bütün bunlar nəticəyə nail olmaq istəyi və güzəşt yolu ilə nizamlanmaya doğru getmək arzusu əsasında idi. Müəyyən mərhələdə, nizamlamaya həddən artıq yaxınlaşdığımız vaxtda erməni tərəfinin geriyə addım atması başqa bir məsələdir. Bu, artıq faktdır, hərçənd onlar həmişə bizi bunda ittiham etməyə çalışırdılar. Lakin son anda onlar Kəlbəcər və Laçının qaytarılmasından imtina etdilər. Çünki digər beş rayon çoxdan razılaşdırılmışdı. Biz artıq Kəlbəcər və Laçının nə vaxt qaytarılacağı məsələsini müzakirə edirdik. Yəni, biz müddəti müzakirə edirdik. Bu məsələnin həll olunacağına nə mənim, nə də Minsk qrupunun şübhəsi yox idi. Düşünürəm ki, Minsk qrupunun o vaxt bu məsələdə iştirak edən sabiq həmsədrləri bunu təsdiqləyə bilərlər. Lakin sonra erməni tərəfi bir addım geri çəkildi və Kəlbəcərlə Laçının qaytarılması məsələsi həll edilməmiş qaldı. Başqa sözlə desək, elə mexanizm təklif olunurdu ki, bu iki rayon həmişəlik ermənilərin nəzarəti altında qalmalı idi və mən bununla qətiyyən razı ola bilməzdim.

Odur ki, mən yenə də sizin sualınıza qayıdıram, Minsk qrupu nizamlama üçün bünövrə yaradıb. Buraya ərazilərin işğaldan azad edilməsi, məcburi köçkünlərin qaytarılması, kommunikasiyaların açılması, azərbaycanlı və erməni icmalarının birgə yaşayışı daxildir. Bu, beynəlxalq hüququn və ümumiyyətlə, bəşəri əxlaqın normalarına tamamilə uyğun gəlir. Çünki Ermənistan prezidentlərindən biri ermənilərin və azərbaycanlıların milli uyuşmazlığından danışarkən, o, bir daha özünün faşist mahiyyətini nümayiş etdirib. Niyə azərbaycanlılar və ermənilər Rusiyada sakit yaşaya, ümumi biznesə, qarışıq ailəyə sahib ola bilirlər? Niyə bəzi gürcü kəndlərində ermənilər və azərbaycanlılar bir yerdə yaşayır, həm müsəlman, həm də xristian bayramlarını qeyd edirlər? Niyə Azərbaycanda minlərlə erməni bizim vətəndaşlarımız kimi layiqli həyat yaşayır? Buna görə də bu cür faşist niyyətli tezislər, əlbəttə ki, nizamlamaya kömək etmirdi. Beləliklə, sadaladığım bütün bu baza prinsipləri, üstəgəl kommunikasiyaların açılması nizamlamanın əsasıdır. Minsk qrupunun həmsədrləri də Azərbaycanın mövqeyini dəstəkləyirlər, lakin Ermənistanın indiki rəhbərliyi başqa yolla getdi. Baş nazir bəyan edirdi ki, Azərbaycana bircə qarış da torpaq verməyəcəklər. Onlar qondarma “Dağlıq Qarabağ respublikası”nın xəritələrini dərc edib, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda olan yeddi rayonun hamısını da oraya daxil ediblər. Onlar bizim bütün şəhərlərimizin, kəndlərimizin adlarını dəyişiblər. Bizim döyüş meydanında gördüklərimiz, sadəcə, onların 30 il ərzində qurduqları müdafiə xəttini yarıb keçmək deyildi. Biz gördük ki, onlar bu əraziləri verməyə hazırlaşmırdılar. Ona görə ki, orada o qədər iş görülmüşdü, mühəndis kommunikasiyalarına, möhkəmlədici qurğulara o qədər sərmayə qoyulmuşdu ki, bu, onların həmin torpaqlardan çıxıb getməyə hazırlaşmadıqlarını göstərirdi. Münaqişənin qaynar fazası başa çatdıqdan sonra biz onların orada nələr tikdiyi barədə tam informasiya təqdim edəcəyik. Buna görə bir daha demək istəyirəm ki, indi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir. Bu insan, sadəcə, təsadüfən hakimiyyətə gəlməyib, o, həm Azərbaycan xalqına, həm də erməni xalqına həddən artıq iztirab və qəm-qüssə gətirib. O, Sorosun əlaltısıdır. Bu insan əvvəllər həmişə Ermənistanın Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdi. Onun partiyası “Çıxış” adlanırdı - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxış, Avrasiya İqtisadi Birliyindən çıxış. Paşinyanın bütün komandası praktik olaraq Qərbin, Soros Fondunun, “Amnesty International”, “Transparency”, “Human Rights Watch”, “Freedom House”un maliyyələşdirdiyi qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarətdir. Bu gün Ermənistan hakimiyyətində təmsil olunan insanlar vaxtilə Rusiya səfirliyinə yumurta atır, “Rusiyalı işğalçılar, rədd olun” şüarları ilə çıxır edirdilər. Buna görə də mən, düzünü desəm, Rusiyanın siyasi isteblişmentinin müəyyən hissəsinin bu cinayətkar terrorçu rejimi dəstəkləməsinə təəccüblənirəm. Onların gecə vaxtı Gəncə şəhərinə ballistik raketlərdən zərbə endirməsi, özü də mümkün qədər daha çox insanı məhv etmək üçün yaşayış massivlərinə biləərəkdən zərbə endirməsi qanlı cinayətdir. Onlar bu cinayətə görə hazırda döyüş meydanında cavab verirlər. Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Buna görə də sualınıza qayıdıram, biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki, gec deyil, nə qədər ki, qarşımızda diz çöküb bu prinsipləri qəbul etmək və münaqişəni qaynar fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var.

***- Sonda məntiqə uyğun olardı soruşum ki, Siz Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistandan olan həmsöhbətinizlə görüşmək üçün Moskvaya gəlməyə hazırsınızmı?***

- Bilirsiniz, mən Moskvada çox olmuşam. İndiki halda mən belə dəvət almamışam, ona görə bu sual mənə deyil. Dəfələrlə şəxsən Prezident Vladimir Vladimiroviç Putin və ondan əvvəl Dmitri Anatolyeviç Medvedev Ermənistan və Azərbaycan rəhbərləri arasında üçtərəfli görüşlər keçiriblər. Lakin Ermənistanda hakimiyyət şərti Sorosun əlinə keçəndən sonra bu cür əlaqələr dayandırıldı. Rusiya münaqişənin nizamlanmasında həmişə mühüm rol oynayıb və mən bu barədə demişəm, bunun üçün həm tarixi, həm də coğrafi xarakterli obyektiv səbəblər var. Səbəblərdən biri də budur ki, Rusiya onilliklər boyu bizim regionda aktiv fəaliyyət göstərir və qarşılıqlı əlaqələr yüksək səviyyədədir. Buna görə də biz hər cür əlaqəyə hazırıq, yeri gəlmişkən, Xarici İşlər nazirlərinin görüşünün təşkil olunması barədə təklif gələn kimi biz dərhal razılaşdıq. Bu da bizim mövqeyimizin göstəricisidir. Axı, o vaxt Azərbaycan Ordusu strateji ərazilərin bir hissəsini artıq uğurla azad etmişdi və bu, münaqişənin təqribən on gündən çox davam etdiyi vaxt baş vermişdi. Kimin nəyə qadir olması praktik olaraq artıq hamıya aydın idi. Döyüş əməliyyatlarının sonrakı gedişatını təxmin etmək, yəqin ki, çox çətin deyildi. Lakin buna baxmayaraq, biz vaxtı uzatmadıq və ya imtina etmədik. Biz dedik, bəli, biz hazırıq. O vaxt, Rusiya Prezidenti ilə söhbət zamanı dedim ki, mən naziri göndərirəm, yeri gəlmişkən, Xarici İşlər naziri həmin vaxt Cenevrədə idi, Minsk qrupu ilə danışıqlar aparırdı. Münaqişənin qaynar fazasında bizim nazir Cenevrədə idi, erməni nazir isə oraya gedib çatmadı, hərçənd o da, orada olmalı idi. Buna görə biz qarşıdurmaya son qoymaq və nizamlama yollarını tapmaq üçün Moskvada və ya hər hansı başqa bir yerdə görüşməyə həmişə hazırıq. Biz də sülh istəyirik, lakin Ermənistandan fərqli olaraq, biz öz qanuni ərazilərimizi də istəyirik.

***-Cənab Prezident, müsahibəyə görə sağ olun.***

-Siz sağ olun.

*“Bir daha demək istəyirəm ki, indi baş verənlərin bütün təqsiri şəxsən Paşinyanın üzərindədir. Bu insan, sadəcə, təsadüfən hakimiyyətə gəlməyib, o, həm Azərbaycan xalqına, həm də erməni xalqına həddən artıq iztirab və qəm-qüssə gətirib”*

# XİN: Almaniyalı deputatların Qarabağa qanunsuz səfərlərinə görə bu ölkənin XİN-inə nota göndəriləcək

***Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Almaniya üçün radikal sağçı Alternativ (AfD) partiyasının Bundestaq və Brandenburq federal torpağının Landtaqındakı fraksiyalarının nümayəndələrindən ibarət dörd nəfərlik nümayəndə heyətinin işğal altında olan torpaqlarımıza səfərinə münasibət bildirib.***



Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Leyla Abdullayeva deyib: “Oktyabrın 18-də Almaniya üçün radikal sağçı Alternativ (AfD) partiyasının Bundestaq və Brandenburq federal torpağının Landtaqındakı fraksiyalarının nümayəndələrindən ibarət dörd nəfərlik nümayəndə heyəti Şteffen Kotre (Steffen Kotre), Ştefan Koyter (Stefan Keuter), Andreas Qalau (Andreas Galau), Andreas Kalbits (Andreas Kalbitz) işğal altında olan torpaqlarımıza səfər edib.

Qeyd etmək istərdik ki, Almaniyada olduqca mənfi imicə sahib olan bu deputatlar AfD partiyasında Ermənistanın xeyrinə təbliğat aparan qruplaşmanın üzvləridir. Andreas Kalbits AfD partiyasının idarə heyətinin 2020-ci il 15 may tarixli iclasında neonasist Respublikaçılar partiyasına üzv olması əsas gətirilməklə, neonasist keçmişinə görə partiya sıralarından xaric olunub. Qeyd edək ki, Bundestaqın deputatı Ştefan Koyter də ictimaiyyətdə nasist və antisemitist şüarlardan həvəslə istifadə etməsinə görə seçilir.

Yuxarıda adları qeyd olunan deputatların adları 2019-cu ildə Azərbaycanın işğal olunmuş torpaqlarına qanunsuz səfər etdiyi üçün Azərbaycan Respublikasının “arzuolunmaz şəxslər” siyahısında yer alıb. AfD siyasətçilərinin adları təkcə Azərbaycanın işğal olunmuş bölgələri deyil, bütövlükdə postsovet məkanındakı münaqişə bölgələrinə tez-tez qanunsuz səfərlər etməkdə hallandırılır.

## Rusiya mətbuatı: Ermənistanın Qarabağdan çıxması an məsələsidir

Ermənistan ordusu özünün 20-ci əsrin 80-ci illərinə aid taktika və silahları ilə Azərbaycanın 21-ci əsrə aid silahlara məxsus, yüksək döyüş ruhu və başlanan işi sona çatdırmaq niyyəti olan ordusunu dayandıra bilməz. SİA bu barədə Rusiya mətbuatına istinadən yazır. Qeyd olunur ki, Azərbaycan Dağlıq Qarabağda parlaq qələbə qazanıb, Ermənistan isə məğlub olub və onun Qarabağdan çıxması an məsələsidir: “Aradakı fərqi ortaya çıxaran əsas amil müdafiə planlaşdırmasına yeni yanaşma, idarəçilik və kəşfiyyatın, o cümlədən kosmik kəşfiyyatın keyfiyyəti, havada üstünlük, hava hücumundan müdafiə sistemlərinin məhv edilməsi taktikası olub. Ermənistan artıq 700-dən çox hərbçisinin həlak olduğunu açıqlayıb. Bu, yaralılar da nəzər alınmaqla erməni döyüş bölmələrinin qüvvəsini itirdiyini göstərir. Həm də onların pilotsuz uçuş aparatları probleminə qarşı həlli yoxdur. Azərbaycan təkcə dronlarda deyil, həm də döyüş əməliyyatlarının planlamasında və idarə olunmasında üstünlüyə sahibdir, şəxsi heyətin ruh yüksəkliyi gözəçarpan dərəcədədir. Azərbaycanlılar mümkün olan hər yerdə irəliləməyə çalışır”.

***Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi vətəndaşlarımız, eləcə də xaricdə yaşayan soydaşlarımız tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.***



# Prezidentə yazırlar: Bu günlərdə xalqımıza yaşatdığınız hədsiz sevinc və qürur hisslərinə görə Sizə minnətdarıq

Norveçin Oslo şəhərində yaşayan Şervin Nəcəfpur və Atabəy Nəcəfpur yazırlar: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Norveçdəki "CAN" Azərbaycan diaspor təşkilatının və ailəmizin üzvləri adından Sizə dərin hörmətimizi və minnətdarlığımızı bildiririk. Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti təcavüzü, Azərbaycan xalqının öz torpaqlarının azadlığı uğrunda Vətən müharibəsinə başlaması dünyada yaşayan azərbaycanlıları da ayağa qaldırmışdır. Bu gün dünya azərbaycanlıları Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyir. Sizin qətiyyətiniz sayəsində Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Milli Ordumuz cəsarətlə mübarizə aparır. Bu gün rəşadətli Azərbaycan Ordusuna xalqımız hərtərəfli dəstək verir. Azərbaycan xalqının güc birliyindən qürur hissi duyuruq. Biz inanırıq ki, Sizin əzminiz sayəsində Azərbaycan Ordusu BMT-nin Təhlükəsizlik Şurasının Qarabağla bağlı qəbul etdiyi qətnamələrə necə hörmətlə yanaşmağın vacib olduğunu bütün dünyaya göstərəcək. Dövlətimizə, xalqımıza bu haqq işində, şərəfli mübarizədə zəfər arzulayır və daim bütün gücümüzlə başda Siz olmaqla Azərbaycan dövlətinin, ordusunun yanındayıq. Şəhidlərimizə Allahdan rəhmət diləyirik və yaralılarımıza Allahdan şəfa diləyirik. Tanrı xalqımıza bu müqəddəs işdə yardımçı olsun".

Bakı şəhər sakini Əlikram Qəniyev: "Hörmətli Prezidentim, mən Sizin apardığınız daxili və xarici siyasətlə həmişə fəxr etmişəm. Bu gün də mənfur düşmənlərə verdiyiniz dərs bu sətirləri yazmağıma səbəb oldu. Mən və tabeliyimdə olan "İnsan hüquqlarının müdafiəsi və ekologiyanın qorunması" İctimai Birliyinin Sabunçu rayon mərkəzinin kollektivi Sizi bu uğurlar və qələbə münasibətilə təbrik edirik. Sizə, xalqımıza, millətimizə Allahdan cansağlığı arzulayıram. Hər an Sizin əmrinizlə düşmənlə döyüşməyə hazırıq, cənab Ali Baş Komandan. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Qazax sakini Məmməd Omarov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, şairlər, tarixi şəxsiyyətlər və hərbçilər Vətəni Qazax elinin ürəyində Sizin xüsusi yeriniz var. Siz Vaqifin, Əliağa Şıxlinskinin, Fərrux ağa Qayıbovun, Səməd Vurğunun ruhunu şad etdiniz. XXI əsrin birinci yarısında dünya prezidentləri sırasında Allahın say-seçmə bəndəsi kimi tarixə düşdünüz. Həsrətlə gözü yollarda qalan Qarabağ torpağını amansız, hiyləgər, faşist ermənilərin işğalından birdəfəlik azad etməyə yol tapdınız, müzəffər Ordumuzu qələbələrə ruhlandırdınız. Bu haqq yolunda Sizə və əsgərlərimizə yeni-yeni uğurlar arzulayıram. Allah Sizi və Ordumuzu qorusun!".

Ağdaş rayon sakini Taleh Yunusov: "Hörmətli cənab Prezident, Sizin uğurlu və uzaqgörən siyasətiniz nəticəsində bu gün Azərbaycan Ordusu sürətlə irəliləyir. Azərbaycan torpaqlarının azadlığa qovuşduğu bu günlər tarixə qızıl hərflərlə yazılır. Mən Sizinlə qürur duyuram, cənab Ali Baş Komandan. Dünyanın hər yerində Azərbaycanla bağlılığı olan hər bir kəs Sizinlə fəxr edir. Yaşasın Azərbaycan, yaşasın Prezidentimiz!".

Füzuli sakini Ceyhun Məmmədov: "Hörmətli cənab Prezident, faşist erməni dövlətinin qədim Gəncə şəhərinə növbəti hücumu bizi sarsıda bilməz. Bütün canımız, malımız, övladımız bu Vətənə qurban olsun. Əzəli torpağımız olan Qarabağın azad olunması üçün düzgün hərbi və siyasi mübarizənizi bundan sonra da həyata keçirəcəyinizə inanır və bu ədalətli mübarizədə Sizin arxanızda polad yumruq kimi dayandığımızı bildiririk. Tanrı Sizi və əsgərlərimizi qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Paytaxt sakini Roman Kazımov: "Hörmətli cənab Prezidentimiz, biz Sizi çox sevirik. Sizinlə fəxr edirəm. Bütün uşaqlar Sizi çox sevir. Mənim nənəm Qərbi Azərbaycandan qaçqındır. Siz düşmənləri "iti qovan kimi" qovduqca biz sevinirik. Qarabağı işğaldan azad edəcəyinizə hamımız inanırıq. Mən də böyüyəndə cəsur əsgər olacağam".

Astara rayon sakini Ağamirzə Əkbərov: "Möhtərəm cənab Prezident, bu günlərdə bizə yaşatdığınız hədsiz sevinc və qürur hisslərinə görə Sizə və şanlı Ordumuza minnətdarıq. Cənab Prezident, Azərbaycanda hamı Sizin ətrafınızda sıx birləşib. Bu gün milli həmrəylikdən kənarda qalanı nə xalq, nə də tarix bağışlamayacaq. Astaranın bütün sakinləri adından bir nəfər kimi Sizi dəstəklədiyimizi, əmrlərinizə hazır olduğumuzu bildirirəm".

Gəncə şəhər sakini Gülşən Məmmədzadə: "Möhtərəm cənab Prezident, Sizin qətiyyətiniz və şücaətiniz bizi həm fərəhləndirir, həm qürurlandırır. Hər bir sadə azərbaycanlı qazandığınız bütün uğurlara sevinir, Sizinlə fəxr edir. Biz kəlbəcərlilər inanırıq ki, tez bir zamanda Kəlbəcərlə bağlı şad xəbər verəcəksiniz. Buna əminik və böyük ümidlə o dəqiqələri gözləyirik. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik. Şəhidlərimizə ulu tanrıdan rəhmət, yaralılarımıza şəfa diləyirik. Xalqımız Sizin uğurları gözləyir. Təşəkkür edirik. Qarabağ Azərbaycandır!".

Füzuli sakini Ramiq Qurbanov: "Hörmətli Ali Baş Komandan, bildirirəm ki, mən Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlıları qrupunda xidmət etmişəm. Ancaq həyat elə gətirdi ki, öz səhvim ucbatından həbs olundum. Əziz Prezidentimiz, Sizdən xahiş edirəm ki, mənə bir şans verəsiniz və Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmək üçün yenidən Azərbaycan Ordusunda Vətənə xidmət etməyimə şərait yaradasınız. Cənab Prezident, söz verirəm ki, Vətənimizin hər qarış torpağı uğrunda son nəfəsimədək döyüşməyə hazıram. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Ofeliya Sənani yazır: "Möhtərəm cənab Prezident, mənim Sizə hörmətim, ana məhəbbətim o qədər sonsuzdur ki, özümü saxlaya bilməyib məktub yazdım. Analıq məhəbbəti çox güclü olur. Mən gecələr də yatmayıb Sizə - müdrik siyasətçimizə, Vətənini, xalqını ürəkdən sevən, tutarlı, dəqiq, qətiyyətli çıxışlar edən, düşmənə bütün qəlbi ilə nifrəti olan vətənpərvər, mətin, sözündən dönməyən əbədi Prezidentimizə qulaq asıram və dualar edirəm. Mən 80 yaşlı ana Sizinlə sözlə ifadə edilə bilməyəcək dərəcədə fəxr edirəm. Bu yaşda çox xoşbəxtəm ki, Sizin sayənizdə gündən-günə gözəlləşən, çiçəklənən, eləcə də başqa ölkələrdən seçilən, tayı-bərabəri olmayan, ürəkləri sevindirən Azərbaycanımızı görürəm. Hər şeyə görə Sizə minnətdarıq, bizim əbədi Prezidentimiz. Ulu Tanrı Sizi qorusun!".

Şəmkir sakini Fərid Tağıyev: "Hörmətli Prezidentimiz, ordumuzun əks-hücum əməliyyatları nəticəsində Füzuli, Cəbrayıl şəhərlərinin və bir çox kəndlərimizin işğaldan azad olunması münasibətilə Sizi və əsgərlərimizi ürəkdən təbrik edirəm. Nə xoş Azərbaycan xalqına ki, Sizin kimi Ali Baş Komandanımız, Prezidentimiz var. Mənim 16 yaşım var, "Keşlə" futbol komandasında oynayıram. Hər bir Azərbaycan vətəndaşı kimi mən və komanda yoldaşlarım döyüşlərdə igid əsgərlərimizlə çiyin-çiyinə vuruşmağa hazırıq. Uca Allah Sizi və əsgərlərimizi qorusun. Qəlbi Vətən sevgisi ilə çırpınan bir vətəndaş olaraq böyük qürurla deyirəm ki, Qarabağ Azərbaycanındır!".

Astara sakini Zabit Rzayevin məktubunda deyilir: "Hörmətli cənab Prezident, bu gün Azərbaycan Ordusunun erməni silahlı qüvvələrinə qarşı uğurlu əməliyyatı nəticəsində qazanılan zəfərlərə görə Sizə öz adımdan və həmkəndlilərim adından dərin təşəkkürümüzü bildiririk. Sizə və bütün əsgərlərimizə bu haqq-ədalət savaşında yeni-yeni nailiyyətlər arzu edirik. Bir daha əmin olduq ki, Siz hər bir Azərbaycan vətəndaşının Prezidentisiniz. Allaha əmanət olun, bizlər həmişə Sizinləyik. Allah Ordumuzu və Sizi qorusun!".

Bakı sakini Teymur Babaşov: "Əziz və hörmətli Prezidentimiz, öncə Sizə dərin minnətdarlığımı bildirirəm və Ulu Tanrıdan möhkəm cansağlığı və uzun ömür arzulayıram. Qeyd etmək istəyirəm ki, Sizə ünvanladığım müraciətə əsasən, Sizin tapşırığınızla problemin həllində mənə kömək olundu. Biz hüquqi dövlətdə yaşayırıq və bizim gözəl qanunlarımız var. Cənab Prezident, inanırıq ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində tezliklə bütün torpaqlarımız işğaldan azad olunacaq və biz zəfər çalacağıq. Qələbə bizimdir. Bir vətəndaş olaraq, mənə verilən dəstəyə görə bir daha Sizə dərin təşəkkürümü bildirirəm".

Bakı sakini Roman Vasilyev: "Hörmətli cənab Prezident, mən milliyyətcə rusam. Bakıda anadan olmuşam, 46 yaşım var. Azərbaycanı qəlbən sevirəm. İnsanlarla ünsiyyətdə olarkən Azərbaycan dilində danışmağa üstünlük verirəm. Hesab edirəm ki, bu Vətəni qorumaq, torpaqlarımız uğrunda vuruşmaq mənim də bir vətəndaşlıq borcumdur. Ona görə də könüllü olaraq cəbhəyə yollanmaq arzusu ilə yaşayıram. Əgər mənə ehtiyac olarsa, hər zaman hazıram. Cənab Prezident, mən hər zaman azərbaycanlılardan xoş rəftar, isti münasibət görmüşəm. Ölkəmizdə müşahidə olunan tolerantlığın dünyada bənzəri yoxdur. Bu, Sizin və rəhmətlik atanız, ulu öndər Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Hər zaman Sizi dəstəkləyirəm və əmrinizlə Vətən uğrunda döyüşə hazıram".

İsmayıllı sakini Mehran Nurməmmədli: "Möhtərəm cənab Prezident, əminəm ki, bu gün torpaqlarımız uğrunda şəhid olan bütün övladlarımızın ruhu şaddır. Qarabağ qazilərimiz çox xoşbəxtdir. Çünki onların qanı yerdə qalmadı. Bu gün elə şəhid ailələri də sevinc yaşayırlar, uğrunda övladlarının şəhid olduğu torpaqlar Sizin və qüdrətli Ordumuzun sayəsində düşmən tapdağından azad olunur. Bu böyük sevinci xalqımıza bəxş etdiyiniz üçün Sizə və Ordumuza dərin minnətdarlığımı bildirirəm və bildirmək istəyirəm ki, bundan sonrakı qərarlarınızda da biz hər zaman Sizi dəstəkləyirik".



# Adil Əliyev: "Ermənistan artıq uduzmuş dövlətdir"

Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan əks-hücum əməliyyatları öz nəticəsini verməkdədir. Ərazilərimizin işğaldan azad edilməsi xəbərləri bizi olduqca sevindirir, hər bir Azərbaycan vətəndaşının qəlbini qürur hissi ilə doldurur. Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyev tərəfindən qarşısına qoyulmuş bütün məqsəd və vəzifələrin öhdəsindən layiqincə gələrək sürətlə irəliləyir. AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib ki, 27 sentyabrdan bu günə qədər Ermənistanın itkilərinin sayı-hesabı yoxdur. Rəsmi mənbələrə əsaslansaq, bu dövrdə düşmənin maddi itkisinin 1 milyard dollardan çox olması aydındır. Lakin əminik ki, real itkilər rəsmi elan edilən rəqəmlərdən dəfələrlə artıqdır. Çünki bu, ilk hal deyil və Ermənistan hakimiyyəti xalqını mütəmadi olaraq aldadır. Hətta döyüş şəraitində öldürülən hərbi qulluqçuları dəfələrlə ictimaiyyətə qeyri-döyüş şəraitində olan itki kimi təqdim etmək Paşinyan hakimiyyətinin ənənəvi gerçəkliyidir. Demək olar ki, Ermənistan rəsmi olaraq 1 il bundan əvvəl iqtisadi cəhətdən tənəzzül yaşamış, COVID-19 xəstəliyinin yayılması zamanı isə idarəetməni tamamilə itirmələrini rəsmi olaraq elan etmişdi. Bu gün isə Ermənistan cəbhədə uduzmaqla yanaşı, diplomatiya masasında da uduzur. İki dəfə humanitar atəşkəsin elan edilməsinə baxmayaraq, Ermənistan atəşkəsin şərtlərini kobud şəkildə pozduğu üçün layiqli cavabını alır.

Baş verənlərin fonunda Ermənistan hər gün sarsıdıcı zərbələrin hədəfində olur, geri çəkilməyə başlayır, maddi-texniki bazası durmadan zəifləyir və şəxsi heyəti tamamilə zərərsizləşdirilir. Döyüşlərin başladığı vaxtdan indiyədək ələ keçən texnikaların sayı hər gün artır. Ermənistan silahlı qüvvələri əvvəlcə taqımlar və bölüklər şəklində döyüş meydanından geri çəkilirdilərsə, bu gün artıq bütöv hərbi hissələri avadanlıqları ilə birlikdə Azərbaycan Ordusuna təslim edirlər.

Spikerin müavini bildirib ki, müharibənin taktiki cəhətdən prinsipidir ki, müdafiə xətti daim güclü olmalıdır. Azərbaycan Ordusu düşmənin dərin müdafiə xəttini yarmağa nail olub. Xüsusilə, döyüş əməliyyatlarının davam etdiyi bir vaxtda biz müharibəni həm bu sahədə qəbul edilmiş beynəlxalq humanitar hüququn prinsiplərinə sadiq qalaraq davam etdiririk, həmçinin hədəfimiz minimum itki və maksimum nəticə prinsipidir. Müharibədə rəşadətli ordumuzun gücünü görməklə bərabər, Azərbaycan dövləti tərəfindən uzun illər hərbi sahəyə ayrılmış diqqətin bariz nəticəsini görürük.

Bugünkü təhlillər göstərir ki, pilotsuz uçuş aparatları, dronlar və digər silahlarımız Ermənistanı çox ciddi itkilərə məruz qoyur və bu itkilər zamanı bizim tərəfimizdən heç bir tələfata yol verilmir. Müdafiə Nazirliyinin paylaşdığı rəsmi xəbər və videoçarxlardan aydın şəkildə görə bilirik ki, bu gün düşmən döyüş meydanında çox böyük itkilər verir, artıq Ermənistan uduzmuş dövlətdir. Təbii ki, onlar nə qədər çox direniş göstərsələr bir o qədər çox itki verməyə məcbur olacaqlar. Azərbaycan humanitar hüququn prinsiplərinə sadiq qaldı, dəfələrlə onlara təklif edildi ki, ərazilərimizi işğaldan azad etməkdən başqa çıxış yolları yoxdur. Hələ bir neçə il bundan əvvəl Prezident, Ali Baş Komandan İlham Əliyev bildirib ki, erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağına gəlməsin. Lakin təcavüzkar Ermənistan hakimiyyəti nə bizim torpaqlarımızdan, nə də mənfur xislətlərindən geri çəkilmədi. İndi artıq gecdir və qəbul etdikləri səhv qərarlarının nəticələrinə dözmək vaxtıdır.

Adil Əliyev qeyd edib ki, Ermənistanın yaşı 60-a qədər olan insanları, mülki şəxsləri zorla orduya səfərbər etməsi həqiqətən də çıxılmaz vəziyyətdə olmalarının əyani sübutudur. Azərbaycanda isə bu gün hər kəs könüllü olaraq, böyük ruhla, canla-başla döyüşə getməyə hazırdır və Ali Baş Komandanın bu sahədə verəcəyi əmri gözləyir. Düşməndən fərqli olaraq, Azərbaycanın heç bir halda döyüşmək üçün kənardan hərbçi dəvət etməsinə zərurət yoxdur. Biz bu torpaqların sahibiyik. İstər əhalinin sayı baxımından, istərsə də digər parametrlərdə Ermənistandan ən azı 5 dəfə daha böyüyük. Ermənilər kimi bu ərazilərə kiminsə diktəsi ilə köçməmişik...

Tarixə qısa bir nəzər salaq. Ermənilərin bu əraziyə köçürülməsi 1828-ci ildə Rusiya ilə İran arasında bağlanan Türkmənçay müqaviləsindən sonra baş tutub. Müqaviləyə əsasən müasir İran ərazisindən və qismən Şərqi Anadoludan ermənilərin Qarabağ regionuna kütləvi şəkildə köçürülməsi başlanıb. Onlar heç 200 il deyil ki, bu müqəddəs torpaqlara ayaq basıblar. Qədim oğuz yurdu, odlar diyarı Azərbaycanın yaşı isə minilliklərlə ölçülür.

Qarabağın Azərbaycanın tarixi, əbədi və əzəli torpağı və ayrılmaz tərkib hissəsi olduğunu heç bir ölkə və beynəlxalq təşkilat istisna etmir. Əksinə, bir çox dövlətlər haqq işimizdə bizi yaxından dəstəkləyirlər. Azərbaycanı dəstəkləyən ölkələrin sırasında əlbəttə ki, ilk yerdə qardaş Türkiyə yer alır. Həmçinin Pakistan, Ukrayna və digər dost dövlətlər də Azərbaycanla bağlı ədalətli mövqe sərgiləmişlər. Şimal qonşumuz olan Rusiya ilə də bizim çoxəsrlik dostluq, əməkdaşlıq münasibətlərimiz var. Başda Ermənistan olmaqla, digər dövlətlərdən zaman-zaman Rusiya ilə Azərbaycan arasına nifaq salmaq, müəyyən etimadsızlıq yaratmaq cəhdləri olsa da, bu, baş tutmayıb. Belə məsələlər heç vaxt bizim strateji tərəfdaşlığımıza kölgə sala bilməz. Bu gün tarix Azərbaycanın tərəfindədir, qələbə tərəfimizdədir, dünyanın haqq işini, ədalətli dəstəkləyən ölkələri bizim tərəfimizdədir. Ermənistanın süqutu qaçılmazdır. Qarabağ Azərbaycandır!

# Bəhruz Quliyev: AfD-nin Ermənistanla faşist düşüncələri üst-üstə düşür

***Almaniya Bundestaqının üzvlərinin işğal altındakı ərazilərimizə səfər etmələri Azərbaycanla Almaniya dövləti arasındakı münasibətlərə təsir edə bilməz. Bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev bildirib.***



Onun sözlərinə görə, belə bir səfərin heç bir rəsmi çalarları yoxdur, çünki atılan bu addımın özü birmənalı olaraq qanunsuzdur, eləcə də, beynəlxalq hüquqa qarşıdır: "Xüsusən qeyd etmək istərdim ki, belə bir həssas məqamda - Azərbaycanın öz hüququndan istifadə etməklə ərazi bütövlüyünü, suverenliyini təmin etdiyi bir zamanda, həmçinin işğalçı Ermənistanın terror siyasətinə qarşı mübarizə apardığı, ədaləti bərpa etdiyi bir vaxtda AfD partiyasından olan almaniyalı deputatların "DQR"ə səfərlərinin gerçəkləşməsi Almaniyanın BMT çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü tanıması faktına da xələl gətirir. Əslində isə, AfD-nin siyasi xəttinin nasizm ideologiyasına söykəndiyini nəzərə alaraq, bu məsələdə təəccüblü hər hansı bir halın olmadığını da söyləyə bilərik. Ermənistanda Almaniya faşizminin qurucusu Adolf Hitlerin silahdaşlarından hesab edilən, habelə milyonlarla insanların, yəhudilərin, rusların, müsəlman xalqlarının və s. qanlarını axıdan, soyqırımlarında iştirak edən Qaregin Njdeyə abidə ucaldılıb".

Ekspert əlavə edib ki, AfD-nin də tutduğu mövqe eynidir və Ermənistanla ucuz düşüncələri üst-üstə düşməkdədir: "Əbəs deyil ki, bu gün AfD heç Almaniya ictimai rəyinin özündə də qəbul olunmayan, rədd edilən bir siyasi təşkilatdır, partiyadır. Bu partiya ölkədə islamafobiya siyasətini reallaşdırmağa, qeyri-almanları ölkədən çıxarmağa və bu da olmazsa, terrorizə etməyə hazır olduğunu gizlətməyən ultra-sağçı, neofaşist qurumdur".

# "Ermənistanı silahlandırıb onun işğalçılıq siyasətinə vasitəçi olmağın özü böyük cinayətdir"



"Ermənistan yeni humanitar atəşkəsi də kobud şəkildə pozdu. Məlum olduğu kimi, Azərbaycan və Ermənistan oktyabrın 18-dən müvəqqəti humanitar atəşkəsə razılıq verdilər. Lakin yağı düşmən bu dəfə də riyakarlıq edərək atəşkəsin ilk anından Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini minaatan və artilleriya qurğularından atəşə tutdu. Ermənistan hakimiyyəti bununla növbəti dəfə açıq-aşkar sülh danışıqlarının davam etdirilməsində maraqlı olmadığını təsdiqləmiş oldu. Dövlətimizin başçısı İlham Əliyev xarici ölkələrin televiziya kanallarına müsahibələrində, həmçinin xalqa müraciətlərində daim bu faktı diqqətə çatdırır ki, hakimiyyətə zor gücünə gələn N.Paşinyan ilk gündən danışıqların formatının dəyişdirilməsinə, qondarma "Dağlıq Qarabağ respublikası"nı tərəf kimi danışıqlar prosesinə cəlb etməyə səy göstərməklə, həmçinin "Qarabağ Ermənistandır" bəyanatını səsləndirməklə, işğal olunmuş ərazilərimizdə süni məskunlaşdırma siyasətini həyata keçirməklə danışıqlar prosesində maraqlı olmadığını nümayiş etdirib". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyev BMT tribunasından Ermənistanın yeni ərazilər uğrunda müharibə planı hazırladığını bəyan edir, amma dünya Ermənistanın bu cinayət əməllərinə seyrçi mövqedə dayanır: "Bax, bu cür ikili standartlara əsaslanan yanaşmalar Azərbaycan dövlətinin, xalqının səbir kasasını doldurdu. Azərbaycan Ordusu dünya birliyinin, xüsusilə ATƏT-in Minsk qrupu həmsədrlərinin 30 ilə yaxın müddətdə "gözlə-gözlə" deməklə Ermənistana vaxt qazandırmaq üçün atdıqları addımlara döyüş meydanında cavab verdi. Hər gün cəbhə bölgələrindən gələn qələbə xəbərləri Ermənistanı və onun havadarlarını məyus etməyə bilməz. Azərbaycan işğalçıya, eyni zamanda, dünya dövlətlərinə döyüş meydanında gücünü, malik olduğu imkanları göstərir. Oktyabrın 19-da dövlətimizin başçısı İlham Əliyev özünün rəsmi "Twitter" hesabında növbəti qələbə xəbərini- Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı

İsmayıllı, İsaqlı kəndlərinin işğaldan azad edildiyini paylaşdı. Qarabağ Azərbaycandır!

Baş redaktor bildirib ki, Ermənistan silahlı qüvvələri oktyabrın 9-10-da Moskvada Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşündə əldə olunan humanitar atəşkəs razılaşmasını kobud şəkildə pozaraq bu razılaşmadan heç bir gün keçməmiş cəbhə bolgəsindən xeyli uzaqda yerləşən Gəncəni raket atəşinə tutaraq soyqırımı aktı törətdi, dünya susdu. Oktyabrın 18-də növbəti humanitar razılaşma əldə edildi, dərhal Ermənistan razılaşmanı kobud şəkildə pozdu, dünya yenə də susur: "Bu susmalar həmin dövlətlərə, nüfuzlu beynəlxalq təşkilatlara hansı dividendi gətirə biləcəyi sual doğurur. Kasıb, iqtisadi tənəzzül içərisində çabalayan Ermənistanın bu şəkildə silahlanmaya maddi imkanı yol verə bilməz. Sentyabrın 27-dən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulduğunu qeyd edən dövlətimizin başçısı xalqa müraciətində bildirmişdir ki, təqdim edilən siyahı natamamdır, düşmənin daha böyük həcmdə texnikası məhv edilib, döyüş zamanı bunun dəqiq hesablaması mümkün deyil. Azərbaycan döyüş meydanında tam üstünlük əldə edərək Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxarıb. Ancaq sual olunur: Bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Statistikaya müraciət edək. Ermənistanın hərbi, ümumilikdə dövlət büdcəsi bəllidir. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Ermənistanın sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti 2 milyard dollar səviyyəsindədir. Amma həm işğal edilmiş torpaqlarımızda, həm də Ermənistanda onların texnikası qalıb. Dünya bu sual ətrafında düşünməlidir ki, bu silahlar kim tərəfindən işğalçıya hədiyyə edilir?"

V.Rəhimzadə bu məqama diqqəti yönəldib ki, dünya dövlətləri, beynəlxalq təşkilatlar Ermənistanın silahlandırılmasını görməzdən gəlir, amma bəzi hallarda silah alınması ilə bağlı ölkəmizə qarşı əsassız iradlar irəli sürülür: "Azərbaycanın malik olduğu iqtisadi və maliyyə imkanları göz önündədir. Ermənistandan fərqli olaraq Azərbaycan dünyada iqtsadi möcüzələr ölkəsi kimi tanınır və nüfuz qazanır. Azərbaycanın təkcə hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən çoxdur. Müharibə şəraitində yaşayan, ən əsası torpaqları işğal altında olan dövlətin hərbi büdcəsini artırması, ordusunun maddi-texniki bazasını möhkəmləndirməsi onun suveren hüququdur. İşğalçı dövləti silahlandırıb işğala məruz qalan dövlətin ərazisində döyüşməsinə, həmçinin mülki əhalini atəşə tutmasına vasitəçi olmaq isə özü beynəlxalq hüququn norma və prinsiplərinə zidddir, böyük cinayətdir. Budur, dünyanın ikili siyasətinin əyani sübutu".

Baş redaktor bildirib ki, bu gün dünyaya bu çağırış olunur: İşğalçıya maddi və mənəvi dəstəyi göstərməklə, silahlandırmaqla onun cinayət əməllərinə şərik olmaq heç bir dövlətə, beynəlxalq təşkilata başucalığı gətirməz. Silahlandırmaya, baş verən terror aktlarına, insanlığa qarşı cinayətə göz yummamaqla cinayətkarı ədalətə sövq etmək olar. Azərbaycan dövləti döyüş meydanında üstünlüklərə malik olsa da hər zaman sülh danışıqlarının tərəfdarı olduğunu bildirir. Ermənistanın danışıqlar masası ətrafında oturması üçün onun "başına sığal çəkilməsinə" son qoymağa böyük ehtiyac var. Diplomatik müstəvidə, döyüş meydanında qələbə qazanan Azərbaycan zəfərləri ilə tarixini daha da zənginləşdirir, bu reallığı Ermənistana və onun havadarlarına bir daha sübut edir- Qarabağ bizimdir, Qarabağ Azərbaycandır

***Ceyhun Rasimoğlu***

# “AfD”-nin Hitlerizm ideologiyası və terrorçu Ermənistan sevgisi

## *Bu ultra-sağçı partiyanın ideoloji prinsipi Adolf Hitlerin “Mein Kampf” kitabı üzərinə qurulub*

***Məlum olduğu kimi, Almaniya Bundestaqının “AfD” (Almaniya üçün Alternativ) adlı ultra-sağçı və neofaşizm ideologiyası üzərində fəaliyyət göstərən partiyasının deputatları - Şteffen Kotre, Andreas Kalbitz və Andreas Qalao artıq son günlərini yaşayan və rəsmi terror siyasəti yürüdən təcavüzkar Ermənistanın əlaltısı, quldur “dqr”-ə səfər edərək, oranın saxtakar, terrorçu “liderləri” ilə görüşlər keçiriblər.***

Əslində, belə bir səfərin Azərbaycanın öz əzəli torpaqlarını azad etməsi ərəfəsində baş tutmasının arxasında digər kirli, hiddət doğuran məqamlar var və bu məqamların hər birinin kökündə islomafobiya, ksenofobiya, iqrçilik kimi amillərin dayandığı da sirr deyil. Daha dəqiq desək, neofaşistlik, nasizm siyasətini özünə xətt seçən, milyonlarla insanların həyatına son qoymuş Adolf Hitlerin “Mein Kampf” kitabını isə ideoloji prinsipi olaraq təqdim edən “AfD”nin terrorçu Ermənistanla aşkar iş birliyinə getməsi bilavasitə terrora dəstək vermək məqsədinin bariz sübutudur. Yəni bu gün Ermənistan Gəncə də daxil olmaqla, Azərbaycanın dinc şəhərlərini, cəbhədən kilometrlərlə kənar yaşayan mülki əhalisini hədəfə alırsa, bu şəhərləri və insanları ortamənzilli, dağıdıcı raketləri ilə viran qoyub, qətlə yetirirsə, bu məqamda adıçəkilən nasist alman deputatları da “dqr”ə səfər edirlərsə, deməli ki, terrora dəstək göstərirlər. Halbuki, artıq beynəlxalq təşkilatlar, ayrı-ayrı nüfuzlu siyasi xadimlər, ölkə liderləri baş verənləri pisləyərək, hiddətlərini bəyan ediblər. Bu isə həm də belə bir nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır ki, “AfD” partiyasını təmsil edən deputatların məlum səfərləri Almaniyanın rəsmi mövqeyi hesab edilə bilməz. Belə ki, Almaniya dövlət olaraq, Azərbaycanın ərazi bütövlüyünü Qarabağ da daxil olmaqla tanıdığını bəyan edir.













### Qaregin Njdenin abidəsi önündə təzim edib, diz çökən “AfD”çilər Ermənistanın dövlət siyasətinə çevrilmiş terrorçuluq maraqlarını dəstəkləyirlər

Ancaq bu da faktdır ki, “AfD” təmsilçiləri işğalçı Ermənistanın terror, təcavüzkarlıq siyasətini dəstəkləyən ilk addımların atmırlar və bu partiyanın təmsilçiləri daha əvvəllər də istər Ermənistan, istərsə də “dqr”lə sıx təmaslarını qurublar. Hətta yüz minlərlə insanın qanını tökən, faşist Almaniyasının hərbi-siyasi rəhbərliyinin sağ əli hesab edilən Qaregin Njdenin abidəsi önündə baş əyib, qarşısında təzim də ediblər...

Misal üçün, daha bir faktı da xatırlada bilərik ki, məhz 2017-ci ildən etibarən Almaniyanın Baden-Vürttemberq, Türinqen, Meklenburq-Forpommern və Brandenburq federal torpaqlarının landtaqları, eyni zamanda Bundestaqın və Avropa Parlamentinin “AfD”çi deputatlarının sırasından işğal altında olan torpaqlarımıza bir neçə qanunsuz səfərlər qeydə alınmışdı. Bundan əlavə, Bundestaqın “AfD” fraksiyasının nümayəndələri 2018-ci ildə Almaniyaya səfər etmiş işğal altında olan ərazilərimizdə yaradılmış qanunsuz, quldur rejimin “parlament deputatları” ilə Bundestaqda görüşmüş, eləcə də onları Brandenburq federal torpağının Landtaqına 01.09.2019 tarixində keçirilmiş seçkilərə dəvət etmiş və erməni mətbuatı bunu “Artsax” nümayəndələrinin həmin seçkilərdə müşahidəçi qismində iştirakı kimi təqdim etmişdir, halbuki, bu cür seçkilərə bir qayda olaraq xarici müşahidəçilər dəvət olunmurlar.

### Əbəs deyil ki, Avropanın bir sıra sağlam düşüncəli siyasiləri, habelə siyasi beyin mərkəzləri “AfD”ni islamafob, antisemitist, irqçi, antidemokratik partiyası adlandırırlar

İndi isə gələk “AfD”nin Almaniyada hansı nüfuza sahib olmasına. Yuxarıda da qeyd etdiyimiz kimi, neofaşizm üzərində fəaliyyət göstərən bu partiyanın əsas məqsədlərindən biri də Almaniyanı “islamlaşmaqdan xilas etmək”, inteqrasiya olunmayan miqrantları sıxışdırmaq, Avropa İttifaqının səlahiyyətlərini azaltmaqdan ibarətdir. Əbəs deyil ki, Avropanın bir sıra sağlam düşüncəli siyasiləri, habelə siyasi beyin mərkəzləri “AfD”ni islamafob, antisemitist, irqçi, antidemokratik və “BREXİT partiyası” da adlandırırlar, yəni Avropanın ümumi siyasi xəttinə zidd təşkilat kimi tanıyırlar. O cümlədən, Almaniyanın əsas siyasi partiyaları və qurumları “AfD”nin fəaliyyətini ölkənin ana yasa quruluşuna əks-siyasət yürütməkdə ittiham edirlər.

Daha bir fakt budur ki, Almaniyada həm federal hökumət, həm də federal torpaqların hökumətlərinin qurulması prosesində “AfD” ilə koalisiya qurulması və ümumiyyətlə, bu partiya ilə hər hansı formada əməkdaşlıq edilməsi digər bütün siyasi qüvvələr tərəfindən birmənalı olaraq istisna edilir, bu əməkdaşlıq təhlükə hesab edilir, habelə əməkdaşlıq olarsa, onun digər partiyaların imicinə ciddi xələl vuracağı bildirilir. Təkcə bir xatırlatmaya diqqət yetirək. Belə ki, Bundestaqda hər fraksiya üçün bir vitse-prezident vəzifəsi nəzərdə tutulsa da, üç il əvvəl - 2017-ci ildə seçilmiş Bundestaqın cari çağırışında “AfD” fraksiyası bu vəzifəyə 4 müxtəlif namizədini plenar iclasda indiyədək keçirilmiş 10 səsvermədə seçdirə bilməmişdi. Almaniyanın əks-kəşfiyyat qurumu olan Federal Konstitusiyanı Müdafiə İdarəsi sağçı ekstremist mövqeyinə görə “AfD”ni müşahidəyə götürmüşdü. Həmçinin Federal Konstitusiyanın Mühafizəsi İdarəsinin keçmiş direktoru Hans-Qeorq Maassen “AfD” rəhbərliyi ilə keçirdiyi xidməti görüşlərinə görə ictimai qınaqlara davam gətirməyərək istefa verməli olmuşdu. Avstriyada pornoqrafik, eləcə də qatı irqçilik, ifrat qeyrinsanilik təbliği edən videoçarxlar qalmaqalı ilə hökumət böhranı yaratmış “FPÖ” partiyası ilə “AfD”nin sıx tərəfdaşlıq etməsi və sözügedən qalmaqaldan sonra belə “FPÖ”yə dəstəyini ifadə etməsi də “AfD”nin mənfi imicini şərtləndirən faktlardan biridir. Beləliklə, “AfD”çilərin sağçı populist, irqçi, antisemitist və islamafob qüvvə olmasına dəlalət edən çoxlu sayda fakt məlumdur.

### “AfD”çilər onlarla insanın qətlini həyata keçirən norveçli terrorçu Anders Breyviklə eyni fəlsəfəni bölüşürlər

Xatırlatmaq yerinə düşərdi ki, Bundestaqın mövcud çağırışında 3 komitənin (büdcə, turizm, hüquq) rəhbərliyinə “AfD”çi deputatlar gəlsələr də, Hüquq komitəsinin sədri Ştefan Brandner (Stephan Brandner) ötən il özünün antisemit və sağçı ekstremist çıxışlarına görə komitə üzvləri tərəfindən vəzifədən uzaqlaşdırılmışdı.

Bundestaqın Sosial-Demokratlar (SPD) fraksiyasının nüfuzlu deputatı Yohannes Karsın (o, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri kimi tanınıb) Bundestaqdakı son çıxışlarından birində “AfD”çiləri sərt tənqid etməsi “AfD” fraksiyasının üzvü Bitriks fon Ştorx (Beatrix von Storch) tərəfindən əllə başını kəsmək işarəsi ilə qarşılanmışdı.

2019-cu ildə işğal altında olan torpaqlarımıza qanunsuz səfər etmiş Bundestaqın deputatı Ştefan Koyter (Stefan Keuter) Almaniya ictimaiyyətində nasist və anti-semitist şüarlardan həvəslə istifadə etdiyinə görə ad qazanıb. O cümlədən, onunla səfər yoldaşı olmuş Brandenburq Landtaqının deputatı Andreas Kalbits (Andreas Kalbitz) “AfD”nin sağçı ekstremist qanadını təmsil edir və onun müxtəlif sağçı ekstremist və neonasist təşkilatlarla əməkdaşlıq etdiyi məlumdur.

Nəticə isə budur: Ultra-sağçı milliyyətçi və nasist “AfD”çilər öz proqramlarını həm də islamafob çalarlar üzərində qururlar. Onlar müsəlman miqrantları Almaniya və Avropa üçün təhlükə adlandırırlar və bu baxımdan, onlarla insanın qətlini həyata keçirən norveçli terrorçu Anders Breyviklə eyni fəlsəfəni bölüşürlər.

### “AfD” üzvü Lars Patrik Berq Ermənistana səfəri zamanı armenpress.am saytına verdiyi müsahibəsində Dağlıq Qarabağı “xristianlığın beşiyi” və “xristian inancının qalası” adlandırıb

“AfD”çilər işğal altındakı torpaqlarımıza qanunsuz səfərlərini, eləcə də işğalçı rejimlə əlaqələrini Dağlıq Qarabağın guya xristian mədəniyyətinin tərkib hissəsi olması ilə əsaslandırmağa çalışırlar. Məsələn, Baden-Vürttemberq Landtaqının üzvü kimi hələ 2017-ci ildə Dağlıq Qarabağa qanunsuz səfər etmiş və hazırda Avropa Parlamentinin deputatı olan Lars Patrik Berq (Lars Patrick Berg) Ermənistana səfəri zamanı armenpress.am saytına verdiyi müsahibəsində Dağlıq Qarabağı “xristianlığın beşiyi” və “xristian inancının qalası” adlandırıb.

Maraqlı məqam isə həm də budur ki, ölkəmizə qarşı qərəzli mövqedə dayanan alman KİV-i belə terrorçu, işğalçı Ermənistanla “AfD” arasındakı əməkdaşlığına tənqidi mövqedən yanaşıb, habelə “AfD”çilərin qanunsuz səfərləri barədə məhz Azərbaycanın maraqlarına xidmət edən informasiyalar yaymaqla haqq və ədalətin yanında olduqlarını sərgiləyiblər. Görünən həm də budur ki, “AfD”çilərin beynəlxalq hüquqa hörmətsizlik etməsi, başqa ölkələrin qanunlarını pozması və onların ərazi bütövlüyünü şübhə altına alması alman mətbuatı tərəfindən həvəslə qabardılır və sərt şəkildə tənqid olunub, çox yəqin ki, bu dəfə də belə olacaq.

***Rövşən RƏSULOV***

# Dünya mətbuatı Ermənistanın Gəncədə törətdiyi vəhşilikdən yazır!

*Ermənistanın Gəncəni raket atəşinə tutması ilə bağlı Moldova mətbuatında məqalələr dərc olunub*


TOP NEWS | TERKINI | TENTANG KAMI
ANTARANEWS.com
Sabtu, 17 Oktober 2020
HOME POLITIK HUKUM EKONOMI METRO SEPAKBOLA OLAHRAGA HUMANIORA LIFESTYLE HIBURAN NUSANTARA DUNIA ENGLISH
FOKUS INFOGRAFIK FOTO VIDEO TEKNO OTOMOTIF WARTA BUMI KARKHAS ANTI HOAX ANTARA INTERAKTIF RAMADHAN RILIS PERS INDEKS

Serangan roket hantam kota Ganja di Azerbaijan

Sabtu, 17 Oktober 2020 10:27 WIB

...n SAR melakukan pencarian dan penyelamatan di lokasi ledakan yang terkena hantaman roket saat terjadi ...rtempuran memperebutkan wilayah Nagorno-Karabakh antara Armenia dan Azerbaijan, di kota Ganja, ...erbaijan, Sabtu (17/10/2020). ANTARA FOTO/Reuters-Umit Bektas/hp.

FOTO TERPOPULER
Jembatan ambruk di Pangkal Pinang
Wisata Taman Kincir Zandea

Las constantes agresiones de Armenia y los crueles ataques contra civiles deben cesar. La comunidad internacional no puede hacer la vista gorda ante estos actos inhumanos de Armenia contra el pueblo de Azerbaiyán.

Las constantes agresiones de Armenia y los crueles ataques contra civiles deben cesar. La comunidad internacional no puede hacer la vista gorda ante estos actos inhumanos de Armenia contra el pueblo de Azerbaiyán.

Azerbaiyán condena firmemente los atroces ataques de Armenia contra la población civil de Azerbaiyán y llama a este estado agresor que detenga sus crímenes de guerra.

La dirección político-militar de Armenia, utilizando el terror como política de Estado, ... responsabilidad por su orden de lanzar cohetes contra la población civil. La Repúb... Azerbaiyán declara que, en base a los mecanismos del Derecho Nacional e Internacio... culpables de este crimen serán llevados ante la justicia.

JIJI.COM 記事一覧 連載・特集 ランキング 写真・動画 2020年10月17日(土) 東京都(東京) 18℃ / 11℃ 80%
トップ 政治 国際 社会 経済 スポーツ エンタメ 地域 ライフ 予定 メディカル
時事ドットコムニュース > 国際 > アルメニア軍が攻撃、１３人死亡 アゼルバイジャン大統領「報復…

アルメニア軍が攻撃、１３人死亡　アゼルバイジャン大統領「報復する」

2020年10月17日19時25分

【モスクワ時事】アゼルバイジャン非常事態省は１７日、第２の都市ギャンジャが同日未明にアルメニア軍の攻撃を受け、１３人が死亡、５０人以上が負傷したと発表した。アリエフ大統領は国民向け演説で「戦場で報復する」と表明した。一方、アルメニア国防省はアゼルバイジャン軍が停戦合意に違反して攻撃を続けていると主張した。

ナゴルノカラバフ停戦で合意　アゼルバイジャンとアルメニア―ロシア外相

ギャンジャでは現地時間午前１時ごろに住宅地域にロケット弾が撃ち込まれ、就寝していた民間人が犠牲になったもようだ。現地からの映像では、建物が激しく破壊されてがれきの山と化し、救急隊員が下敷きになった人々の救出に当たった。アゼルバイジャン検察当局は「多数の公共インフラが破壊された」と非難した。ギャンジャは１１日にも砲撃を受け、１０人が死亡した。

【国際記事一覧へ】　【時事ドットコムトップへ】

新型コロナ最新情報　日韓関係　香港問題

新型コロナウイルス最新情報
感染者+642人　総計 92,151人
※10月16日現在、クルーズ船客ら除く
国内感染、新たに６０９人　東京２３５人、２日ぶり２００人超―新型コロナ (10/17 20:26)
オーストリア外相がコロナ陽性　ＥＵ会合で感染か (10/17 16:48)
「ＧｏＴｏイート」開始２週間　負担懸念、参加に二の足―混乱各所で、店から苦言 (10/17 13:35)
フォーカス

**Moldova mətbuatında Ermənistan silahlı qüvvələrinin Gəncənin yaşayış binalarını gecə saatlarında yenidən raket atəşinə tutması barədə məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, "Timpul.md", "NOİ.md", "İPN.md" və digər informasiya portallarında Ermənistanın Azərbaycanın mülki əhalisini atəşə tutması, oktyabrın 17-də gecə saatlarında Ermənistanın Gəncə şəhərinə raket zərbələri endirməsi və dinc sakinlərin həlak olması, yaralanması haqqında məlumatlar yer alıb.**

Qeyd edilir ki, Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərinin ballistik raket atəşinə tutulması nəticəsində dinc əhali arasında 13 nəfər həlak olub, 50-dən çox insan yaralanıb, yaşayış binaları dağılıb. Moldova mətbuatında Gəncə hadisələri ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı da dərc edilib.

## Özbəkistan portalları Ermənistanın Gəncəni və Mingəçeviri raket atəşinə tutması ilə bağlı materiallar yayıb

Özbəkistanın "tnews.uz" və "qalampir.uz" və "human.uz" portalları Ermənistanın Gəncəni və Mingəçeviri raket atəşinə tutması ilə bağlı özbək və rus dillərində materiallar yayıb. AZƏRTAC xəbər verir ki, "tnews.uz" portalı Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan silahlı qüvvələrinin Gəncəni növbəti dəfə raket atəşinə tutması ilə bağlı bəyanatını yayıb. Bəyanatda deyilir: "2020-ci il oktyabrın 17-də gecə saat 01:00 radələrində Ermənistan Azərbaycanın Gəncə şəhərini ballistik raket atəşinə tutub. Ermənistanın Azərbaycana qarşı yeni təcavüzündən sonra Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə sayca üçüncü dəhşətli hücum ciddi sayda mülki insanların itkisinə səbəb olub, 13 şəxs, o cümlədən 2 uşaq həyatını itirib, 40-dan çox insan ciddi yaralanıb".

Sənəddə bildirilir ki, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ qaydalarını, eləcə də elan olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq dinc insanların məqsədli şəkildə öldürməsi müharibə cinayətidir. Ermənistan rəhbərliyi bu cinayətə görə tam məsuliyyət daşıyır.

"Qalampir.uz" portalı Prezidentin köməkçisi Hikmət Hacıyevin rəsmi Tvitter hesabına istinadla yazır ki, ötən gecə cəbhə xəttindən uzaqda olan Gəncə və Mingəçevir Ermənistan tərəfdən raket atəşinə tutulub. Gəncədə 13 nəfər ölüb, 40-dan çox insan yaralanıb. Ermənistan ərazisindən Gəncəyə atılan SCUD/Elbrus taktiki ballistik raketləridir. Yazıda oktyabrın 11-də Gəncənin atəşə tutulması, ölənlər, yaralananlar, dağıntılar haqqında da məlumat verilir. "Human.uz" saytı isə rus dilində "BMT Ermənistan tərəfdən Azərbaycanın dinc əhalisinin raket atəşinə tutulmasını ittiham edir" sərlövhəli məqalə verib.

## İspaniya ictimaiyyəti Ermənistanın Azərbaycanın Gəncə şəhərinə raket hücumu barədə məlumatlandırılıb

Oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərini ballistik raket atəşinə tutması ilə əlaqədar kommunike ölkəmizin İspaniyadakı səfirliyi tərəfindən hazırlanıb və onun İspaniyanın kütləvi informasiya vasitələri arasında yayılması təmin edilib. AZƏRTAC açıqlamanın xülasəsini təqdim edir: "Oktyabrın 17-də gecə saat 01:00 radələrində Ermənistan Azərbaycanın Gəncə şəhərinə ballistik raket hücumu həyata keçirib. Ermənistanın Azərbaycana qarşı yeni təcavüzündən sonra ölkəmizin ikinci ən böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncəyə sayca üçüncü dəhşətli hücum mülki insan tələfatına səbəb olub. Nəticədə 12 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirib, 40-dan çox insan ağır yaralanıb.

Beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ, eləcə də elan olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq, dinc insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Ermənistan rəhbərliyi bu cinayətə görə tam məsuliyyət daşıyır. Ermənistanın davam edən təcavüzü və mülki insanlara qarşı qəddar hücumları dayandırılmalıdır. Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan xalqına qarşı bu qeyri-insani aktlarına göz yummamalıdır.

Azərbaycan tərəfi Ermənistanın onun mülki əhalisini hədəfə alan bu mənfur hücumlarını şiddətlə qınayır və işğalçı ölkədən müharibə cinayətlərinə son qoymasını tələb edir. Terroru dövlət siyasəti vasitəsinə çevirən Ermənistanın siyasi-hərbi rəhbərliyi dinc əhalini raket atəşinə tutmaq qərarı verdiyinə görə məsuliyyət daşıyır. Azərbaycan bəyan edir ki, milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarların ədalət mühakiməsinə cəlb edilməsi təmin olunacaq".

## Yaponiyanın JIJI PRESS agentliyi Ermənistan ordusunun Gəncəyə raket hücumu barədə məlumat yayıb

Yaponiyanın JIJI PRESS agentliyi oktyabrın 17-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması barədə məlumat yayıb. AZƏRTAC xəbər verir ki, həmin məlumatda oktyabrın 17-də gecə saat 1:00 radələrində Ermənistan ordusunun Azərbaycanın Gəncə şəhərini ballistik raket atəşinə tutduğu qeyd olunub. Bildirilib ki, Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncəyə sayca üçüncü dəhşətli hücum nəticəsində ikisi uşaq olmaqla, 13 nəfər həyatını itirib, 40-dan çoxu isə ağır yaralanıb. Eyni zamanda, mülki infrastruktura ciddi ziyan dəyib.

Məqalədə Azərbaycan tərəfinin bu hücuma cavab verəcəyi barədə məlumat da öz əksini tapıb. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində düşmənə layiqli cavab veriləcəyini bildirib. Eyni zamanda, Azərbaycan Ordusunun işğal altındakı torpaqları azad etmək üçün əməliyyatlarını uğurla davam etdirdiyi barədə fikirlər də məqalədə yer alıb. Qeyd edilib ki, Rusiya tərəfinin vasitəçiliyi ilə tərəflər arasında oktyabrın 10-da humanitar atəşkəs elan olunsa da, döyüşlər səngiməK bilmir.

## İndoneziyanın nüfuzlu KİV-ləri Ermənistan ordusunun Gəncəyə raket hücumunu qəti pisləyib

İndoneziyanın ANTARA Dövlət İnformasiya Agentliyi başda olmaqla "akurat.co.id", "telusur.co.id", "republika.co.id" kimi saytları və digər KİV-ləri oktyabrın 17-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı əsasında xəbərlər yayıb. AZƏRTAC xəbər verir ki, həmin xəbərlərdə oktyabrın 17-də gecə saat 1:00 radələrində Ermənistan ordusunun Azərbaycanın Gəncə şəhərini ballistik raket atəşinə tutduğu qeyd olunub. Bildirilib ki, Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə sayca üçüncü dəhşətli hücum nəticəsində ikisi uşaq olmaqla 13 nəfər həyatını itirib, 40-dan çoxu isə ağır yaralanıb.

Bəyanatda Ermənistan rəhbərliyinin beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ, eləcə də elan olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq, dinc insanların məqsədli şəkildə hədəfə almasının müharibə cinayəti və insanlıq əleyhinə cinayət olduğu, bu cinayətə görə tam məsuliyyət daşıdığı vurğulanıb. Qeyd edilib ki, Ermənistanın təcavüzü və mülki insanlara qarşı qəddar hücumları dayandırılmalıdır və beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan xalqına qarşı bu qeyri-insani aktlarını pisləməlidir.

Məqalələrdə Ermənistanın Azərbaycanın mülki əhalisini hədəf alan bu mənfur hücumları şiddətlə qınanıb və işğalçı ölkədən müharibə cinayətlərinə son verməK tələb edilib. Bildirilib ki, terroru dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistanın siyasi-hərbi rəhbərliyi dinc əhalini raket atəşinə tutmaq barədə verdiyi qərara görə məsuliyyət daşıyır. Azərbaycanın milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarların ədalət mühakiməsinə cəlb edilməsinin təmin ediləcəyi də yazılarda əksini tapıb.

# Ermənistanın hərbi-siyasi rəhbərliyi bəşəriyyət əleyhinə cinayət törədir

## *Milli Məclisin deputatı Kaməlddin Qafarovun yap.org.az-a müsahibəsi*

*- Kaməlddin müəllim, işğalçı Ermənistan hərbi cinayətlərini davam etdirir. Oktyabrın 17-də Gəncə şəhəri növbəti dəfə raket atəşinə tutuldu. Buna münasibətiniz necədir?*



- Oktyabrın 17-də gecə saatlarında erməni faşistlərinin Gəncədə yuxuda olan dinc şəhər sakinlərini Ermənistan ərazisindən raket-artilleriya atəşinə tutması, nəticədə dinc sakinlərin- qadınların, qocaların və uşaqların həlak olması bəşəriyyət əleyhinə amansız cinayət, bütün müharibə qanunlarına və insanlığa zidd olan fövqəladə vəhşilikdir.

Gecə saatlarında erməni faşistlərinin Gəncədə yuxuda olan dinc şəhər sakinlərini Ermənistan ərazisindən raket-artilleriya atəşinə tutması nəticədə 14 dinc sakin, o cümlədən 4 qadın, 3 azyaşlı uşağın həlak olmuş və 50-dən çox dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Beləliklə, döyüş meydanlarından uzaqlarda öz gündəlik mülki qayğıları ilə yaşayan zaman qətlə yetirilmiş vətəndaşlarımızın sayı 60-a çatmışdır. Bu, bəşəriyyət əleyhinə amansız cinayət, bütün müharibə qanunlarına və insanlığa zidd olan fövqəladə vəhşilikdir. Bu qanlı əməllə Ermənistanın azğın rəhbərliyi növbəti dəfə hərbi cinayət törətmiş, öz vəhşi, cəllad xislətini bir daha təsdiqləmişdir. Gəncə şəhərinin, eləcə də digər şəhər və kəndlərimizin raket-artilleriya atəşinə tutulması nəticəsində yüzlərlə ailə evsiz-eşiksiz qalmışdır.

Oktyabrın 16-da Naxçıvanın Ordubad rayonuna və bir gün sonra da Gəncəyə və digər rayonlarımıza edilən raket hücumları bir daha göstərir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi hazırda faciəvi məğlubiyyət və qorxunc bir son ərəfəsində olduqu üçün müharibənin miqyasını hər vasitə ilə böyütməyə çalışır. Nəhayət, oktyabrın 18-də əldə olunmuş atəşkəs rejiminin cəmi bir neçə dəqiqə sonra pozulması, Ermənistan haqqında olan ən pis fikirləri bir daha təsdiqlədi.

*- Sizcə, Ermənistanın mülki insanları atəşə tutmasının əsas məqsədi nədir?*

- Bu xain hücumlarla Azərbaycan xalqını qorxutduqlarını düşünən qorxaq, miskin erməni işğalçıları, son dövrlərdə dəfələrlə olduğu kimi, yenə də səhv edir, yanılırlar. Azərbaycan artıq 1990-cı illərin Azərbaycanı deyildir. Bu cür quldur metodları ilə Azərbaycanı sarsıtmaq, onu haqq yolundan döndərmək qeyri-mümükündür və bu sonsuz inamın nəticəsini onlar qısa zaman kəsiyində bir daha yəqin edəcəklər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi, " ...Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərdi. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır və bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz, sındıra bilməz".

Dinc əhaliyə əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq müharibə cinayətidir və erməni quldurları bu cinayətə görə məsuliyyət daşıyacaqlar. Gəncəyə, eləcə də digər şəhər, rayon və kəndlərimizə edilən alçaq erməni hücumları XXI əsrin ən dəhşətli soyqırımıdır. Onların cavabı döyüş meydanında artıqlaması ilə veriləcək. Şəhid olan günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Prezidentimizin də dediyi kimi, "Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bu amal ətrafında bütün Azərbaycan xalqı birləşib və bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir".

Füzuli, Cəbrayıl şəhərlərinin, Hadrut qəsəbəsinin və 60-a yaxın kəndin işğaldan azad edilməsi, Xudafərin üzərində yenidən Azərbaycan bayrağının dalğalanması, düşmənin vahimə və panika içərisində döyüş meydanından qaçması böyük Qələbəmizin addım səslərini daha aydın şəkildə eşitdirir. Döyüş meydanlarında, dinc yaşayış məntəqələrinə düşmən hücumlarında, həmçinin Gəncə şəhərində həlak olan soydaşlarımıza Allahdan rəhmət və yaralılara şəfa arzulayıram.

Ermənistanın süqut ərəfəsində olan hazırkı quldur hərbi-siyasi hakimiyyəti bununla nə Silahlı Qüvvələrimizi, nə də mülki əhalini qorxuda bilməcək. Azərbaycan xalqı mərddir, heç nədən çəkinmir, qorxmur. Qələbə bizim olacaq!



**Elçin Bayramlı**

# Sorosun "Troya atları" Azərbaycanda

### Ermənilərə xidmət edən şəbəkə və onun toruna düşənlər xalqımıza və dövlətimizə zərər vurmağa çalışır

Azərbaycanın hərbi, siyasi və infrmasiya cənhəsində əldə etdiyi qələbələr bəzi qüvvvələri- daha dəqiq desək 5-ci kolonu və onun ağalarını narahat edir. Agentləri Ermənistanda hakimiyyətdə olan Sorosun Azərbaycanda da adamları var və onlar müxalifət adı altında pərdələniblər. İndi Azərbaycanın arıdıcıl qələbələrindən sonra Sorosdan onlara tapşırıq gəlib ki, təcili olaraq informasiya və təbliğat kampaniyası aparın ki, xalqın hakimiyyətlə birliyi alınmasın, qonşu ölkələrlə problemlər yaransın.

1 aya yaxındır ki, İrandan, Gürcüstandan, Rusiyadan Ermənistana guya silah texnika daşınması ilə bağlı bu qrupun heç bir fakt sübut qoymadan yazıb tökdüyü cəfəngiyyatlar ən yüksək səviyyədə təkzib olundu. Azərbaycan Prezidenti ölkəmizi və xalqımızı qonşu ölkələrlə düşmən etməyə, xalqımızda qorxu, düşməndə isə inam yaratmağa çalışan və bununla da ermənilərə xidmət edən qruplaşmanın dərsini verdi.

Biz yox, Ermənistan bütün qonşularla düşməndir, məhz bu səbəbdən müharibə başlayandan sonra hamısı Ermənistanla quru və hava sərhəddini bağladı və işğalçı ölkə blokadaya düşdü. Bizim isə bütün qonşularla yaxşı münasibətlərimiz və əla əməkdaşlığımız var. Ona görə də bütün 4 qonşu- Rusiya da, İran da, Türkiyə də, Gürcüstan ən yüksək səviyyədə verilən bəyanatlarla bizi dəstəklədi. Bu isə uzun illər aparılan çox effektiv xarici siyasətin və uğurlu iqtisadi əməkdaşlığın əyani nəticəsidir.

Ərəbistan sərhəddində yerləşən bölgədə su probleminə görə yolu kəsib təkər yandıran camaatı göstərib, ya da İran daxilində hərəkət edən hərbi texnikanın fotosunu yayıb "İrandan Ermənistana keçən hərbi texnika aparan maşınları yandırdılar" deyə xəbər vermək, ya da "Kafkaz 2020" hərbi təlimlərində iştirak edəndən sonra Ermənistana qayıdan erməni maşınlarını göstərib "Rusiya Ermənistana İrandan silah göndərir" yazmaq, Türkiyə üzərindən keçib Yerevana gələn dava dərman yüklü Fransız təyyarəsini göstərib "Avropadan Türkiyə vasitəsilə ermənilərə kalan silah gəlir" deyə bəyan etmək, Mahaçqalada qatarla gedən hərbi texnikanı göstərib "bu texnikalar Ermənistana gedir demək" (belə çıxır ki Azərbaycan öz ərazisindən Ermənistana bir uzun qatar hərbi texnika keçirir ki, ermənilər onların vasitəsilə əsgərlərimizi öldürsünlər- bu artıq konkret olaraq dövlət rəhbərlərini xəyanətdə ittiham etməkdir) konkret dövlətə və xalqa qarşı təxribatdır.

Bəziləri səmada uçmaqda olan təyyarə xətlərinin şəklini qoyub iddia edirlər ki, bəs Suriya ordusunun Ermənistana köməyə xüsusi təyinatlı batalyonları gəlir. Ay bala, sənin heç Suriyadan xəbərin varmı? Sorada 10 ildir müharibə gedir, milyonlarla adam ölüb ordunun yarıdan çoxu məjhv olub, Suriya ordusu özü əsgər axtarır döyüşməyə o da ola xüsusi təyinatlı. Demək burada 2 variant ola bilər- ya bu xəbərləri yayan adam erməni agentidir, ya da ibtidai təhsil və dönyügörüşü də yoxdur. Əslində isə, xəbəri yaradan düşmən agenti, bilməyib yayanlar isə savadsız şəxslərdir.

Bu məlumatları yayan şəbəkələr yalnız bir məqsədə xidmət edir- Azərbaycanda qorxunu, ermənilərdə isə inamı gücləndirməyə, qonşu ölkələri Ermənistanla dost, Azərbaycanla düşmən etməyə. 80 faiz hallarda bu xəbərləri erməni şəbəkəsi, 20 faiz halda isə Amerikan agenturası yayır. Hər iki şəbəkənin başı bir mərkəzə bağlıdır. Bu şəbəkə savadsız kütləni əllərində oyuncaq kimi oynadırlar və pulsuz işlədirlər özlərinə.

Ona görə də, feysbuk səhifələrinə və küçə saytlarına heç vaxt inanmayın. Yadda saxlayın ki, sosial şəbəkədə yayılan məlumatların azı 90 faizi yalan, saxta, qərəzli və məqsədli olur. Dövlətimizin mövqeyini, onun siyasətini, ölkəmizlə bağlı prosesləri rəsmi şəxslər bəyan edir və həyata keçirir, İP dalınca qaçan küçə saytları və ya layk dalınca qaçan səhifələr ya da xarici agentura şəbəkəsi yox.

Bunlar yalnız savadsız kütləni aldada bilərlər. "Abrazavonski" adamlar belə tələlərə düşməz. Ümumiyyətlə hər hansı bir məlumat görəndə dərhal mənbə tələb edin, verməsə onunla bağlı müvafiq orqanlara şikayət edin. Cəbhə xəttindən videolar və hərbi sirr sayılacaq materialları yayanları ifşa edək. Troya atlarını zərərsizləşdirməliyik. Sonda onu da xatırladım ki, bütün bu prosesləri DTX ciddi şəkildə nəzarətdə saxlayır və belə dezinformalar yayan, təxribatlar yaratmağa çalışanların hər biri buna görə cavab verəcək. Tezliklə daxili düşmənlər haqda ciddi tədbirlər görüləcək. Vətən xainləri və satqınlar həmişə öz cəzasına çatıblar və çatacaqlar.

Xəbəriniz olsun yəni.

Özü də sizə bir "sirr" açım- qanunu bilməmək məsuliyyətdən azad etmədiyi kimi, bilmədən zərər vurmaq da azad etmir. Yəni, bunu bilərəkdən edənlərdən başqa, bilməyərəkdən edənlər də məsuliyyət daşıyacaq. Ona görə də etibarlı olmayan, fakta, sənədə əsaslanmayan mənbələrə güvənməyin. Savadsızsınızsa, bu sizin probleminizdir, xalqın və dövlətin yox, çünki bizdə orta təhsil pulsuzdur.

# Erməni təxribatı nəticəsində ölən mülki şəxslərin sayı 61-ə çatdı




Azərbaycanın Baş Prokurorluğu Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı hücumları ilə bağlı yeni məlumat yayıb. Qurumun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Ermənistanın silahlı qüvvələrinin hücumları nəticəsində sentyabrın 27-dən indiyədək 61 mülki şəxs qətlə yetirilib, 282 nəfər isə yaralanıb. Yararsız vəziyyətə düşmüş mülki obyektlərin sayı 341, çoxmənzilli yaşayış binalarının sayı 90, yaşayış evlərinin sayı isə 1 846-dir.

# Ermənistan prezidenti Azərbaycanın qələbəsini etiraf etdi!

"Azərbaycan müharibədə qələbə qazanmağı bacarsa da, onsuz da bununla bitməyəcək". SİA xəbər verir ki, bu sözləri Ermənistan Respublikasının Prezidenti Armen Sarkisyan "Kommersant"a müsahibəsi zamanı deyib. Onun sözlərinə görə, Qarabağ probleminə bir həll axtararkən, sülh danışıqlarına həqiqi alternativ yoxdur.

"Azərbaycan, məsələn, müharibədə qələbə qazanmağı və ya əraziləri ələ keçirməyi bacarsa da, bit, bununla da bitməyəcəkdir. Ağıl müharibəsi, tarix müharibəsi, insan duyğuları müharibəsi davam edəcəkdir. Ermənistanda insanlar bunun başqa bir soyqırım olduğunu düşünəcəklər. Müharibə bitməyəcək. Beləliklə, bütün tərəflərin bundan sonra necə yaşamaq barədə razılığa gəlmələri kimi yalnız bir yol var", deyə Sarkisyan bildirib.

## Ukrayna Ali Radasının deputatı:
# Azərbaycan Ordusu öz torpaqlarının azadlığı üçün döyüşür



Qarabağ Azərbaycandır! Azərbaycan Ordusu öz torpaqlarının azadlığı üçün döyüşür. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik. Bu fikirləri ölkəmizin Ukraynadakı səfirliyinin təşkilatçılığı ilə 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə keçirilən dəyirmi masada çıxışı zamanı Ali Radanın deputatı Lyudmila Marçenko söyləyib. Deputat bildirib ki, hazırda Azərbaycan xalqı olduqca şərəfli tarix yazır.

"Azərbaycan bayrağı tarixi Xudafərin körpüsü üzərində dalğalanır. Bu, olduqca qürurvericidir", - deyən Lyudmila Marçenko bildirib ki, Azərbaycan və Ukrayna dost, tərəfdaş ölkələrdir. Hər iki ölkə bir-birlərinin ərazi bütövlüyünü dəstəkləyir.

# İran Ermənistana məxsus PUA-nı vurub



İran öz dövlət sərhədlərini pozan Ermənistana məxsus pilotsuz uçuş aparatını (PUA) vurub. SİA-nın Rusiya KİV-lərinə istinadən məlumatına görə, səhər saatlarında İranın hava hücumundan müdafiə sistemləri Ermənistan ərazisindən hərəkət edən aparatı dövlət sərhədini keçdikdən sonra zərərsizləşdirib. Hadisə Ərdəbil əyaləti ərazisində baş verib. Həmin dronun kəşfiyyat dronu olduğu müəyyənləşdirilib. Bu, İran tərəfindən Ermənistan PUA-sının vurulması ilə bağlı ilk hadisə olub.

# Göydən üç bomba düşdü... Paşinyanın nağıllarının sonu

***Nikol Paşinyan guya millətin xilaskarı rolunu öz üzərinə götürərək gələcək minillikdə ermənilərin taleyini həll etməyi vəd etdi və nağıllar danışmaqla missiyasının bitdiyini zənn etdi hər zaman. Kasıblıq, xəstəlik, rəzalət içində son dövrə qədərki bütün dövrlərdə də erməni xalqının inlədiyi zaman onların ac qarnını ancaq vədlərlə doldurmaq baş nazir kürsüsünü zəbt edən küçə nümayişçisinin yeganə çıxış yolu, dırnaqarası strategiyası hesab olunub. Hər dəfə sual altından çıxmaq üçün ən asan yolun "nağıl danışmaq", xalqı aldatmaq olduğu qənaətinə gələn Nikol Paşinyanın nağıllarının sonuna gəlib çatdı erməni cəmiyyəti.***

Populism pəhləvanı olan bu avantürist düz iki ildir erməni xalqını sözün əsl mənasında barmağına dolayıb. İstiqlal Bəyannaməsi dedikdə guya erməni xalqının iradəsinə əsaslanan, müstəqil dövlətçilik qurma prosesi iddiası ilə çıxış edən Nikol yenə də xalq dediyi erməni toplumunu aldatdı. Çünki, reallıq bundan ibarətdir ki, bu gün Ermənistan sakinlərinin mütləq əksəriyyəti Rusiyanın bu ölkənin mövcud olmasının əsas qarantı olduğunu öz adı kimi yaxşı bilir. Rusiyanın rolu olmasa, Ermənistanın Azərbaycanın ayaqları altında rəzil duruma düşməli olduğunu yaxşı bilən ermənilər son hadisələrdə bunun bir daha əyani şəkildə şahidi oldu. Ölkəmizin obyektiv iqtisadi və demoqrafik göstəricilərini bilən işğalçı tərəf üçüncü tərəfin müdaxiləsi olmadan birbaşa toqquşma zamanı əhəmiyyətli itkilərlə üz-üzə qalmalı olacağını bilirdi və cəbhə xəttində baş verənlər zərrə qədər şübhə yeri də qoymadı. Hazırda Ermənistan tərəfinin təkcə canlı qüvvə deyil, hərbi texnika, silah-sursat və bir sıra maddi itgilər verdiyi günün reallığıdır və erməni cəmiyyəti yaxşı bilir ki, bu otuz il müddətində toplanılmış vəsaitlərin bərpası üçün Ermənistana bundan sonra heç otuz il də kifayət etməyəcək. Çünki, itgilərinin bərpası üçün bu işğalçı ölkənin elə işğalçılıq siyasətindən ziyadə bir dənə də olsun inkişaf, iqtisadi irəliləyiş, gəlir əldə etmək strategiyası yoxdur. Deməli, ümidləri belə puçdur və güman yeri də ola bilməz.

Silahları belə Rusiya tərəfindən borc olaraq təmin olunan Ermənistan ordusunun varlığından, onun gücündən, imkanlarından dəm vuran Paşinyanın sözlərinin bir heç olduğu, nəinki erməni cəmiyyətinə, bütün dünya ictimaiyyətinə də bəllidir. Ermənistanın baş nazirinin bir zaman şişirtdiyi "ordu" indi çarəsiz, əlacsız və həm də silahsız bir duruma düşüb. Əbəs yerə deyil ki, ölkəsini xilas etmək üçün Nikol gündə bir neçə dəfə dünya liderlərinə yalvarır. Telefonun dəstəyindən əlini üzməyən erməni baş nazir Fransa, Rusiya prezidentlərinin sözün əsl mənasında zəhləsini töküb. Təbii ki, Rusiyanın da, Fransanın da öz problemləri var və bu ölkələrin rəhbərlərinin özünəməxsus qayğıları da yetərincədir. Belə olan şəraitdə Nikolun gündə bir neçə dəfə yalvarış zəngləri zəhlə tökməyə bilməz və heç şübhəsiz ki, müzakirə mövzusu indi bu deyil. Müzakirə mövzusu erməni baş nazirinin öz ölkəsini, erməni cəmiyyətini populizmi, yalan vədləri, öz nağılları ilə aldatması və yekunda məhvə sürükləməsidir. Ermənistanın hələ də silah daşımaq arzusunda, niyyətində olan siyasi-hərbi hakimiyyəti kredit müqabilində aldığı və almağa çalışdığı sursata görə ölkəsini bundan sonra da hansı duruma, asılı vəziyyətə saldığını erməni cəmiyyəti də bilir. Ermənistanı durmadan belə asılılığa sürükləyən Paşinyan hansı müstəqillikdən, hansı istiqlaldan danışır? Belə borclanma, belə boyunduruq Ermənistan iqtisadiyyatını da Rusiyadan asılı edir. Ermənistanın asılılıq səbəbləri saydıqca bitən deyil və Nikol Paşinyanın müstəqillik nağılının da sonu nağıl ənənələrinin əksinə olaraq, xoşbəxt sonluq vəd etmir.

Məlumatları gizlətməklə ürəyi soyumayan Nikol və onun hakimiyyəti bu dəfə səlahiyyətlilərin qərarlarının müzakirəsini belə qadağan edib. Demokratiyadan, Ermənistanda söz azadlığından dəm vuran, bu ölkəyə ali dəyərlər gətirdiyini iddia edən biri dəyərlərə hörmət qoymur, hörmət qoymaq istəyənlərə qarşı repressiyaları da qanuniləşdirib. Qanun məsələsinə gəldikdə isə, nə ölkəsində qanuna yer ayırıb, nə də beynəlxalq hüququ hesaba alıb. Son günlərdə mülki, dinc əhalini artilleriya atəşinə tutan, Azərbaycanın ikinci böyük şəhərinin yaşayış binalarını hədəf alan, insan tələfatına rəvac verən birinin beynəlxalq hüququn norma və prinsplərinə hörmətsizlik, saymazlıq etdiyi, həm də beynəlxalq səviyyədə qanun pozuntuları yol verdiyi dünya ictimaiyyətinə bir daha əyan oldu. Əyan oldu ki, ali prinsipləri ayaqlar altına alan erməni liderləri, Ermənistan hakimiyyəti üçün siyasi spekulyasiya və populizm yeganə "ali" prinsiplərə çevrilib.

Hakimiyyəti zəbt etdikdən sonra şəhərlərin abadlaşdırılması və şəhər administrasiyaları tərəfindən inventar alınması üçün "artan" xərclərdən dəm vuran Paşinyan hansı əsasa görə bunu qürurverici hal kimi təqdim edirdi və guya bilmirdimi ki, bütün bu nəzərdə tutduqları ölkə əhalisinin sonda ödəyəcəyi milyonlarla kredit hesabına olacaqdı? Ən absurd olanı isə odur ki, bir zaman Nikol özü bu kredit müqavilələrinin əleyhinə səs verib. Yəni, əleyhinə olub. İndi nə oldu ki, əleyhinə olduğu bir məsələni nəinki gündəmə gətirdi? Buna yaxşı olar ki, ikiüzlü nağıl deyilsin. Çünki, nağılların da bir məntiqi ardıcıllığı olur axı, Nikolun nağıllarından fərqli olaraq.




Paşinyan dünya mediasında açıq-aşkar şəkildə bir kloun obrazında təsvir edilir. Verdiyi müsahibələri, absurd fikirləri, məntiqsiz ifadələri belə bir obrazın formalaşnasına şərait və zəmin yaradıb. Artıq Nikol nağıl uyduran biri kimi dünyaca məşhurdur desək yanılmarıq. Amma, onun nağıllarının faciələrə gətirib çıxardığı, "partlayışlarla" bitdiyi də bir həqiqətdir. Bu həqiqətləri Dağlıq Qarabağa zorla məskunlaşdırılan erməni əsillilər daha yaxşı bilirlər. Çünki, özgə torpaqlarına yerləşdirilən, sonra da bu torpaqları tərk etmək istəyərkən qadağalarla qarşılaşan ermənilər Azərbaycan Ordusunun öz torpaqlarımızı işğaldan, işğalçılardan azad etmə, terrorçulardan təmizləmə əməliyyatları zamanı bu həqiqətlərə daha yaxından əmin oldular. Heç şübhəsiz ki, ümidlərini inqilabçı Paşinyana bağlayan ermənilər, əslində, dövlət çevrilişi ilə hakimiyyətə gələn avantürist, fırıldaqçı, yalançı Paşinyanı xəyanətlərinə, yalanlarına görə bağışlamayacaq.

Qeyd etdiyimiz kimi, nağıllar hər zaman xoşbəxt sonluqla nəticələnir və nağılları dinləyənlərin də bu nağılları dinlədiyi zaman ən böyük təskinliyi elə məhz bu sonluğa ümid etməsidir. Amma, məsələ burasındadır ki, indi erməni cəmiyyətinin buna da ümidi yoxdur və bu cəmiyyət Paşinyanın qızıldan dağlar vəd edən nağıllarının sonunda fəlakətlərin olmasına alışıb. Xalqı gah işıq gələn, gah da it hürən tərəfə aparan küçə nümayişçisi, vəziyyətdən sui istifadə edən avantürist elə hakimiyyəti qamarlayandan sonra da öz xalqını ağlına gələn yerə sürükləməkdə davam edir. Nikol təmsil etdiyi kütləni it hürən tərəfə aparsa da, Soros kimi divin ağuşuna atdı və ona yem elədi. Qərbin oyunlarına alət olan küçə nümayişçisi hakimiyyət müqabilində ağalarının əmrinə müntəzir olaraq böyük rus qardaşlarına da təpik atdı və indi Putinə yalvarışları da mənasızdır. Çünki, onun mahiyyəti başda Rusiya prezidenti olmaqla bütün ruslara bəllidir.

Bir zamanlar rus nağıllarına qulaq asan, buna adət edən, adaptasiya olunan erməni əsgərinə Qərb nağılları danışan Paşinyan nağıllarının sonunda bu əsgərlərin təpəsinə göydən alma əvəzinə "bomba" düşürdü. Çünki, Azərbaycanın ədalətli, haqlı tələblərinə, ərazi bötövlüyümüzün təminatı üçün işğal etdikləri torpaqlardan işğalçıların, terrorçuların çıxarılması tələblərinə məhəl qoymayan Nikol, nəticədə bu əsgərləri qırğına verərək, analarının gözlərini yaşlı qoydu.

Ermənistan tərəfinin hərbçiləri Azərbaycan Ordusunun rəşadətli döyüşçüləri, hərbi texnikası, döyüş əzmi, vətənpərvərlik ruhu qarşısında hər dəfə itgilər vermək məcburiyyətində qaldı. Ermənistanın baş naziri onları hərbi texnika, hərbi təchizat bir yana, ən adi geyim və qida təchizatı baxımından da təmin etmədi və erməni əsgərlərini də öz nağılları ilə aldatdı. Bu gün Ermənistan tərəfi əsgərlərini zəncirlə bağlayaraq səngərdə, döyüş bölgəsində saxlayır və başlarına endirilən bombaları vecinə də almır. Hazırda erməni cəmiyyətinə hərbçi, canlı qüvvə itgisi barədə yalan informasiyar verənlər, ölən erməni əsgərləri barədə statistik rəqəmləri dəfələrlə az deyənlər, sosial şəbəkədə 5 min hərbçi yaxınlarını, qohumlarını axtaranlara, "onlar itgin düşüblər" deyənlər yenə də təmsil etdiyi xalqa nağıl danışırlar. Deməli, hələ bu nağıl erməni əsgərlərin başlarına göydən çox bombalar düşürəcək və buna görə onları nağıllarla aldadan Paşinyan özü və hakimiyyəti məsuliyyət daşıyır.

Ermənistanın təxribatları, dinc, mülki insanlara qarşı silah tətbiq etməsi, Gəncənin timsalında yaşayış məskənlərini hədəfə alması səbəbindən əhali, hətta körpə uşaqlar belə həyatlarını itirir, insanlar xəsaət alır, mal və mülklərindən olurlar. Bu terrorun fonunda da Nikol Paşinyan nağıllar danışmağa, bu əməllərini əsaslandırmağa çalışır. Bəzən nağıllarına Makron kimi bir Avropalı lideri, Fransa prezidentini də inandırmağı, bu nağıllarla onu da ovsunlamağı bacarır. Nağıllara, yalan informasiyalara, dezinformasiyalara inanan, yaxud inanmağı özünə rəva bilən Makron isə işğalçı ilə işğala məruz qalanı qarışdırır, ya da qarışdırmaq marağına düşür. Əslində, bu ölkə rəhbəri hər şeyi qarışdırır və bununla da başına gələcəklərini özü özünə rəva bilir, yaxud buna rəvac verir.

Dünyanın gözü qarşısında erməni terrorçularının törətdikləri qanlı terror aktlarının fonunda Ermənistanı dəstəkləyən Fransa lideri nüfuzunu sıfıra və hətta ondan da aşağı səviyyəyə endirir. Nəinki Avropa ölkələri, eləcə də dünya dövlətləri, bu dövlətlərin rəhbərləri, beynəlxalq qrurumlar Makronun Nikol adlı bir küçə nümayişçisinin əlində marianet kimi alətə çevrildiyini müşahidə edirsə, bu heç də Fransa prezidenti üçün müsbət, xoşagələn hal deyil. Əksinə, beli çantalı bir küçə nümayişçisinin nağıllarına qulaq asıb, onun oyuncağına çevrilməklə, Makron Qoca Qitədə körpə uşaq imicini özünə rəva bilir. Nəticə etibarı ilə bu Makronun nüfuzuna, imicinə zərbə deməkdir. Makronun timsalında yuyulmamış qaşıq kimi ortaya düşənlər, ədalət prinsplərini saymayanlar, beynəlxalq hüquqa hörmət etməyənlər, işğalçı ilə işğala məriz qalana eyni dərəcədə yanaşanlar, bir çox hallarda ikili standartlar nümayiş etdirənlər özlərini gözdən saldılar. Azərbaycanın haqlı olduğu münaqişəyə ikiüzlülük nümayiş etdirən, işğalçının əməllərinə göz yuman bir sıra siyasilər, hətta qurumlar özləri barədə mənfi imic formalaşdırdılar. Nəticədə isə, Ermənistan kimi bircə dənə də olsun faydalı layihəsi olmayan, qlobal əhəmiyyət daşımayan yararsız bir dövlətə, işğalçı rejimə görə öz nüfuzlarını ayaqlar altına alanların elə bu aspektdə də təpələrinə Nikolun nağıllarının sonunda alma əvəzinə düşən bombalardan biri düşdü. Çünki, belə siyasilərin, beynəlxalq qurumların bundan sonrakı sənədləri bütün dünya üçün kağız parçasından başqa bir mahiyyət kəsb etməz və bütün bunlar nəticədə onların sonunu proqnozlaşdırır.

İki il bundan əvvəl küçə və meydanlarda bağıra-bağıra ali dəyərlərdən dəm vuran, dövlət çevrilişi edib hakimiyyəti qamarladıqdan sonra isə bu dəyərləri ayaqları altına atan beli çantalı birinin hər boş vədinə ümid bəsləyən işğalçı rejim bəs nə gözləyirdi? Yoxsa bu işğalçı rejim elə zənn edirdi ki, Nikol adlı bir küçə nümayişçisi onların işğal etdikləri torpaqları onlar üçün mühafizə edə biləcək? İki il ərzində hər dəfə görüşlərdə ağlına gələni danışan, məntiqsiz, absurd fikirlər səsləndirən, bu səbəbdən hər dəfə gülünc olan biri hansı potensialı ilə diplomatik qələbələrə ümid edə bilərdi? Qələbələri başına dəysin, bu adam axı təlxək obrazında idi və yalanı rahatlıqla danışmağa öyrəşmişdi. Erməni cəmiyyəti, ələlxüsus həmin o işğalçı rejim ağ buğda unundan çörək yeməyi yox, Nikolun vədlərini yemək kimi bir çeçim etdi. Az qala otuz ilə yaxın bir müddətdə Dağlıq Qarabağda məskinləşən həmin o işğalçı rejimə həqiqətlər, Azərbaycan Ordusunun qüdrəti, üstünlüyü barədə həqiqətlər çatdırılmadı. Nikol onlara da özünəməxsus yalanlar danışmağı tərcih etdi, həqiqətləri gizlədərək. Nəticədə erməni baş nazirinin bu nağılı da özləri üçün bədbəxt sonluqla bitməli oldu. Elə bu bədbəxt sonluoun təsirindəndir ki, bu rejim özü-özünü daxildən parçalamağa, dağıtmağa başlayıb və nəticə də partlayış kimi dəqiq bir effekt verməlidir. Belə bir partlayışın isə Nikolun özündən yan keçəcəyi heç ağlasığan deyil. Çətin ki, aləmə papış tikən həmin o işğalçı rejimin, şeytani qurumun əlindən Nikol paşinyan çıxa bilsin. Az qala 30 il müddətində işğalda saxladıqları torpaqların, min bir üzsüzlüklə əldə etdiləri silah-sursatın, hərbi texnikanın, maddi bazanın Nikolun nağıllarına görə əllərindən getdiyini həmin o işğalçı rejim təsəvvür etdiyi anda bu dəfə dediyi nağılların sonunda alma yerinə düşən üçüncü bomba həmin o işğalçı rejimlə bərabər Paşinyanın öz təpəsinə düşəcək. Erməni cəmiyyəti sadalanan bombalara əmin ola bilərlər. Çünki, məntiqi nağıllarının sonunda göydən alma düşəcəyi söz verilirsə, absurd, məntiqsiz, özü də taleyüklü nağılların, Nikol Paşinyanın nağıllarının sonunda, onun Azərbaycan torpaqlarını işğalda saxlamaq niyyətinin fonunda göydən ancaq öz təpələrinə bomba düşə bilər ki, artıq proses çoxdan başlayıb...

***İnam Hacıyev***

# Cəzasız qətl cinayəti və milli genefonda qarşı terror

ARAŞDIRMA

**Abort öz körpəni öldürmək deməkdir, həyatda bundan ağır cinayət ola bilməz**

***Tibbi araşdırmalara görə, ana bətnindəki embrionun ürək döyüntüləri 18 gündən sonra başlayır, 40 gün sonra baş beynə impulsların getdiyi müşahidə olunur, 6-7 həftədən sonra müstəqil hərəkətə başlayır. Oğlanlar ana bətnində 3 aydan sonra, qızlar isə 4 aydan sonra hərəkət edirlər...***

### Dünya üzrə hər 1000 qadına il ərzində 35 abort düşür

BMT-nin araşdırmalarına görə, hər il dünyada 55 milyondan çox qadın abort olunur. Onların 20 milyondan çoxu qeyri-leqal abortlardır ki, bu da ana ölümü hallarının artmasına səbəb olur-ildə təxminən 70 min qadın bu səbəbdən ölür. Ən əsası isə abortların geniş yayılması bəzi ölkələrdə əhalinin artımına mənfi təsir göstərir və demoqrafik problemi kəskinləşdirir.

Abortların 78 faizi inkişaf etmiş ölkələrin, 22 faizi inkişaf etməkdə olan ölkələrin payına düşür. Bu sahədə ən aşağı göstərici Hollandiya, Belçika, Almaniya və İsveçrədədir - il ərzində 1000 qadına 10 abort. Ən yüksək göstəricilər Vyetnam, Rumıniya və Kubadadır- hər 1000 qadına il ərzində təxminən 80 abort.

Bir çox müsəlman ölkələrində (İran, Misir, Əfqanıstan, BƏƏ, İraq, Suriya, Yəmən və s.) abort qanunla qadağandır. Türkiyədə yalnız Səhiyyə Nazirliyi mütəxəssislərinin rəyindən sonra və hamiləliyin 4-6 həftəsinədək aborta icazə verilir.

Ümumiyyətlə, abortun ziyan və günahı barədə istər tibbi ədəbiyyatda, istərsə də hər hansı bir dində nə qədər danışılsa və müzakirə edilsə də dünyanın bir çox yerində qadınlar aborta üstünlük verməyə davam edirlər. Bu isə gələcək nəslin əvvəlcədən qətl edilməsidir.

### Azərbaycanda abort problem getdikcə kəskinləşir

Azərbaycanda qanunvericilik abortları qadağan eləmir. Lakin, Cinayət Məcəlləsinin 116-cı maddəsinə görə, qadını abort etdirməyə məcbur eləmək cinayət məsuliyyəti yaradır.

Cinayət Məcəlləsinin 141.2. maddəsinə əsasən, xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə 360 saatdan 400 saata qədər ictimai işlər və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır. Rəsmi məlumatlara görə, hər il ölkəmizdə 30 min civarında abort əməliyyatı aparılır. Nəzərə alsaq ki, bizdə faktiki edilən abortların böyük hissəsi qeydiyyata alınmır, o zaman Azərbaycanda bu sahədə vəziyyət təsəvvür edildiyindən də ağırdır. Qeyri-rəsmi məlumatlara görə, ölkədə abortların sayı 100 mindən yuxarıdır.

Xüsusən də, yeniyetmə və ailə qurmamış gənc qızların abot hallarının çoxalması ciddi problemdir. Ən pisi də odur ki, əksər abortlar tibb müəssisələrində yox, kənar şəxslər tərəfindən evlərdə edilir ki, son dərəcə təhlükəlidir. Abortun vurduğu ziyanlardan biri də gələcəkdə anormal, fiziki və əqli qüsuru olan uşaqların doğulmasıdır. Çünki, abort zamanı uşaqlığın divarı tibbi alətlərlə o qədər zədələnir ki, bu da öz növbəsində növbəti hamiləlik üçün bir çox problemlər yaradır. Anaların əvvəllər tez-tez abort etməsi ilə əlaqədar ildə 5-6 min vaxtından qabaq uşaq doğulur.

Ümumiyyətlə, abortlar milli genedondumuza vurulan ağır zərbədir, bu səbəbdən də qarışının alınması, bu halların minimuma endirilməsi üçün ciddi tədbirlər görülməlidir.

### Sosioloq: "USM-də cinsin açıqlanmasına görə cəzalar artırılmalıdır"

Müxtəlif beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycan dünyada ən çox selektiv abort baş verən ölkələrdən biridir. Respublikada son 10 ildə oğlan uşaqlarının sayı sürətlə artır. 10 il əvvəl qızların oğlanlara nisbəti 49:50 idisə, indi 48:52-dir. Buna səbəb qız uşaqlarının doğulmamışdan əvvəl cinsinə görə abort etdirilməsidir.

"Sağlam Cəmiyyət" İctimai Birliyinin sədri Lalə Mehralının fikrincə, Azərbaycanda qız uşaqlarının son illər daha çox abort etdirilməsinə şərait yaradan əsas səbəb odur ki, ölkədə ultrasəs müayinəsi son illərdə keçmiş dövrə nisbətən daha əlçatan olub: "Düzdür, respublikamızda həkimlərə USM müayinəsi zamanı uşağın cinsiyyətini demək qadağan olunub, bu, yalnız abort edilmə vaxtı keçəndən sonra, doğuşa az qalmış mümkündür. Buna baxmayaraq, selektiv abortların sayı azalmaq əvəzinə artır. Demək, valideynlər bunu öyrənməyin yolunu tapıblar. Ya rüşvət qarşısılığında həkimlər deyir, ya da hansısa yolla aydınlaşdırırlar".

Sosioloq deyir ki, çox əsaslı səbəb olmadan abort faktına görə, həkim, ana və onu buna məcbur edənlər ciddi cəzalandırılmalıdır: "Bu birbaşa və konkret qətl hadisəsidir və milli genefonda qarşı terror aktıdır. Cəzası da ona görə olmalıdır. Əks halda yaxın gələcəkdə cəmiyyətdə çox ciddi cinsi disbalans yaranacaq ki, bu da demoqrafik problemlə yanaşı, həm də sosial-mənəvi problemlərə səbəb olacaq. Bir çox ölkələrdə artıq bu problem çox ciddi səviyyəyə qalxıb. Bu təhlükənin qarşısı indidən alınmalıdır".

### Həkim: "Abort ana olmaq imkanını itirməyə gətirib çıxarır"

Radioloq həkim Aynura Hidayətqızı Abort istəyən xanımlar hər zaman olub, lakin hazırkı dövrdə xanımlar arasında daha çox gənc subay qızlar təşkil edir, sevib aldanır, sonra isə abort olmaq üçün həkim axtarırlar. Bu isə onların səhhətinə ziyandır, abort uşaqlıqda çapıq əmələ gətirir, həmin çapıq istəyə uyğun olaraq yenidən hamilə qalmamağa şərait yaradır və ya hamilə qalanda düşük əmələ gəlir (uşaqlıqda, endometriumda sürüşkənlik yaranır)".

Mütəxəssis deyir ki, Səhiyyə Nazirliyi dərmanla düşük və abort məsləhət görən həkimləri ciddi nəzarətə alır, ona görə də, həkimlər belə məsləhətlərdən çəkinirlər, baxmayaraq ki, xəstə israr edir, lakin geri çəkilən, qanuna əməl edən həkimlərimiz az deyil. Düşük üçün olan dərmanlar apteklərdə reseptsiz satılmır, satıldığı halda isə yazan həkimin möhürlü reseptinin şəkili çəkilir və Səhiyyə Nazirliyinin müəyyən şöbəsinə ötürülür, belə reseptlərə ciddi nəzarət var. Mənim özümə də müraciətlər az deyil, lakin mən belə məsləhətlərdən uzağam. Bu kimi məsləhətlər yalnız inkşafdan qalmış və ya qüsurlu döllər üçün ola bilər ki, bu da məcburi haldır.

Həkim gənc qızlara nigahdanqabaq cinsi təcrübədən çəkinməyi tövsiyyə edir "Bu həm mənəvi, həm etik, həm bioloji olaraq düzgün deyil: "Evli qadınlara bundan çəkinməyi tövsiyyə edirəm. Çünki, ana bətnində körpəni öldürmək həm ağır günah və cinayətdir, həm də ana sağlamlığına çox ağır zərbədir. Ona görə də, buna gətirib çıxaran şəraitə yol verməmək lazımdır. Profilaktik tədbirlərlə belə halların qarşısı alına bilər".

### Həkim-mamaça: "Məktəbli qızların abortu getdikcə çoxalır"

Öz təcrübəsinə istinad edən həkim-mamaça A.Məmmədovanın sözlərinə görə, abort əksər hallarda qadının öz arzusu ilə reallaşır: "Amma deməliyəm ki, onları bu addıma bəzən ailədə məcbur edirlər. Hətta, bəzi hallarda qadınlar körpəsini dünyaya gətirmək istəyində olsa da, onu zorla gətirirlər".

Həkim deyir ki, abort etdirənlər arasında başqası ilə cinsi əlaqədə olan və ya zorlanan məktəbyaşlı qızların sayı getdikcə artır: "Beləlri, gənc oğlanlarla cinsi münasibətdə olurlar və hamilə qaldıqları məlum olanda ailələrindən xəbərsiz abort etdirirlər. Bəziləri də, cinsi zorakılığa məruz qalır və məcburən aborta məruz qalır. Hətta, mənə 14-15 yaşlı qızlar da müraciət ediblər abort üçün, bəziləri ildə 3-4 dəfə gəlir".

Mütəxəssis bildirir ki, burda sosial problemlərlə yanaşı, mənəvi psixoloji problemlər də mühüm roy oynayır: "Şəxsən mən hesab edirəm ki, abortların arasında ən çoxu elə mənəvi səbəblərdən yaranan abortlardır ki, burda da cəmiyyətin əxlaqi dəyərlərinin getdikcə daha çox deqradasiya olduğunu görürük. Ona görə də, xüsusən, qız uşaqlarının tərbiyəsinə, onlara nəzarətin artırılmasına ciddi fikir verilməlidir".

Həkim deyir ki, abort qadın orqanizminə çox ciddi zərər vurur, bəzi hallarda ana olma qabiliyyəti itir və ya növbəti hamiləlikdə qüsurlu uşaq doğulmasına səbəb olur. Ona görə də, bu, təkcə ərə getməmiş qızların problem deyil, evil qadınlar da bu məsələyə qeyri-ciddi yanaşmalı deyillər. Maraqlıdır ki, çoxları hamiləlikdən qorunma üsulları arasında ən çətininə və ən təhlükəlisinə-aborta əl alırlar. Halbuki, arzuolunmaz hamiləlikdən qorunmaq üçün dövrümüzdə lazımı qədər üsullar mövcuddur. Hamilə qalmaq istəmirlərsə, müxtəlif qoruyucu vasitələrdən və metodlardan istifadə etməlidirlər, lakin bu mütləq həkin məsləhəti ilə olmalıdır".

### Hüquqşünas: "Abortun qadağan edilməsi insan hüquqlarına zidd deyil"

Qeyd edək ki, təbii halda hər 100 qıza qarşı təxminən 105 oğlan doğulur. Amma bəzi ölkələrdə bu balans selektiv abortlarla oğlanların xeyrinə dəyişdirilir. Hazırda Çində hər 100 qıza 130-140, Gürcüstanda 118, Ermənistanda 120, Azərbaycanda isə 115 oğlan düşür.

Bu göstəricini artıq SOS siqnalı hesab edən hüquqşünas Leyla Məhərrəmova deyir ki, abort qətl hesab olunmalı, buna görə ağır cəza tətbiq edilməlidir: "Abortun qadağan edilməsi təşəbbüslərini alqışlayıram. Bunu çoxdan etmək lazım idi. Çünki, hər il daha çox qız uşağı dünyaya gəlməmiş qətlə yetirilir".

Hüquqşünasın sözlərinə görə, bu, insan hüquqlarına zidd deyil, tam əksinə- bu, insan hüquqlarını qorumaqdır, elm təsdiq edib ki, doğulmamiş körpə insana xas bütün əlamətlərə malikdir. Belə qadağaya qarşı etirazlar var, lakin beləleri unudurlar ki, arzuolunmaz hamiləlikdən qorunma üsüllarının sayı çoxdur. Həm təbii, həm də süni üsullar var. Qanunu bilmədən pozmaq məsuliyyətdən azad etmədiyi kimi, bilmədən hamilə qalmaq da aborta haqq vermir".

Sonda qısaca onu demək istəyirik ki, abort öz körpəni öldürmək deməkdir. Həyatda bundan ağır cinayət ola bilməz. Abort "mən qatiləm" deməkdir. Qatil olmayaq...

***Elçin Bayramlı***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**SƏS**

**20 oktyabr**

*Son səhifə*


# Messi, Ronaldo və Robben namizədlər sırasında

"France Football" jurnalı dünyada bütün dövrlərin ən yaxşı sol və sağ cinah hücumçusu adına namizədlərin adını açıqlayıb. Qol.az xəbər verir ki, jurnalistlərin 10 nəfərlik siyahısında müasir dövrün sol cinah hücumçularından təkcə Kriştiano Ronaldo, sağ cinah hücumçularından Lionel Messi və Aryen Robben yer alıb.

Ən yaxşı sol cinah hücumçusu adına namizədlər: Oleq Bloxin (SSRİ), Rivaldo (Braziliya), Kriştiano Ronaldo(Portuqaliya), Roberto Rivelino (Braziliya), Draqan Djaiç (Yuqoslaviya), Ronaldinyo (Braziliya), Rayan Qiqqz (Uels), Karl-Hayns Rummeniqqe (Almaniya), Tyerri Anri (Fransa), Xristo Stoiçkov (Bolqarıstan)

Ən yaxşı sağ cinah hücumçusu adına namizədlər: Devid Bekhem (İngiltərə), Jairzinyo (Braziliya), Corc Best (Şimali İrlandiya), Kevin Kiqan (İngiltərə), Samuel Eto'O (Kamerun), Stenli Metyuz (İngiltərə), Luiş Fiqu (Portuqaliya), Lionel Messi (Argentina), Qarrinça (Braziliya), Aryen Robben (Niderland)



# "Milan"dan Çalhanoğluya yeni müqavilə



"Milan" futbolçusu Hakan Çalhanoğluya yeni müqavilə təklif edib. Bu barədə "Calciomercato" nəşri məlumat yayıb. Bildirilib ki, hər iki tərəf əməkdaşlığın davam etdirilməsinə maraqlıdır. Türk yarımmüdafiəçinin yeni müqavilə ilə illik 6 milyon avro qazanmaq istədiyi vurğulanıb. Qeyd edək ki, Çalhanoğlunun "Milan"la müqaviləsi 2021-ci ilin yayı başa çatır.

## Tarkan: "Dualarım qardaş ölkə Azərbaycanladır"

Türkiyənin məşhur müğənnisi Tarkan da Azərbaycana dəstək olan məşhurların sırasına qoşulub. SİA-nın məlumatına görə, o, sosial media səhifəsində Azərbaycan və Türkiyə bayrağını əks etdirən foto paylaşıb və bu sözləri qeyd edib: "Dualarım qardaş ölkə Azərbaycanladır. Xain hücumlar nəticəsində dünyasını dəyişənlərə Allahdan rəhmət diləyirəm. Ailəsinə və yaxınlarına baş sağlığı verirəm. Yaralılara isə şəfa diləyirəm. Çox üzgünəm. Qəlbim Azərbaycan xalqıyladır".



## Azərbaycan güləşçiləri açıq Kiyev turnirində iki medal qazanıblar

Ukraynada sərbəst və qadın güləşi üzrə açıq Kiyev turniri keçirilib. Azərbaycan Güləş Federasiyasının məlumatında deyilir ki, yarışda Ukrayna, Azərbaycan, Rusiya, Moldova, Polşa, Yunanıstan və Fransa təmsilçiləri mübarizə aparıblar.

Turnirdə qadınlardan ibarət yığmamızın iki üzvü çıxış edib. Tatyana Omelçenko (65 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. T.Omelçenko bu dəfə yuxarı çəkidə qüvvəsini sınamasına baxmayaraq, Aleksandra İşçenko, Manola Skobelska və Tatyana Rijkonu üstələyərək qızıl medal qazana bilib.




Alyona Kolesnik (57 kq) Karina Xornomoru məğlub etdikdən sonra Solomiya Vinnikə uduzub. Ancaq Violetta Petrovskaya qalib gələn millimizin üzvü bürünc medalı boynundan asıb. Qeyd edək ki, komanda hesabında Azərbaycan 40 xalla ikinci yeri tutub.

# Balığın sağlamlıq üçün əsl faydası açıqlandı!

Qırmızı ətlə müqayisədə balıq daha sağlam protein qaynağıdır. Bunun səbəbi balıq yağında olan omeqa-3 yağ turşularıdır. Omega-3 bədənimizin həqiqətən ehtiyac duyduğu "yaxşı" və ya sağlam yağlarıdır. AZƏRTAC "MedikForum" saytına istinadla balığın faydası barədə məlumat verir.

Zəruri qida maddələri ilə təmin edir. Balıq, D vitamininin ən yaxşı qida mənbələrindən biridir, kalsiumun həll edilməsi və sağlam immun sistemi üçün lazımlı qidadır. Bədənimizin metabolizminə nəzarət edən hormonların istehsal edilməsi üçün lazım olan mineral - yod ilə də zəngindir. Xüsusilə yağlı balıqlarda omeqa-3 də çoxdur. Daha sağlam protein mənbəyidir. Balıq əla protein mənbəyidir. Lakin heyvan ətinin növlərindən fərqli olaraq, balıqda çoxlu doymuş yağ yoxdur. Depressiya riskini və simptomlarını azaldır. Balıq zehni sağlamlıq üçün də faydalıdır. Bir neçə tədqiqat göstərdi ki, omeqa-3 depressiya əlamətlərini yaxşılaşdıra bilər. Bundan əlavə, müntəzəm balığın qəbulu ilk növbədə depressiya riskini azaltmağa kömək edir.



Autoimmun xəstəliklərdən qoruyur. Balıq, xüsusilə yağlı balığın qəbulu, autoimmun xəstəliklərin riskini azaltmağa kömək edə bilər. Ekspertlər hesab edirlər ki, bu müdafiə effekti balıq və balıq yağında omeqa-3 və D vitamini ilə əlaqələndirilir. Ürəyin sağlamlığını artırır. Balıqda omeqa-3 üreyi iltihabdan qorumağa kömək edir. Bu sağlam yağlar yüksək xolesterin və yüksək qan təzyiqini azaltmaq üçün çox yararlıdır. Bu faydalar birlikdə ürək sağlamlığının yaxşılaşdırılmasına kömək edir.

# Evdən pul və qızıl-zinət əşyaları oğurladı

Abşeron rayonu ərazisindəki evlərin birindən pul və qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən A.Qəhrəmanov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 13-də rayon ərazisindəki evlərin birindən 780 manat pul və 6000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Qəhrəmanov saxlanılıb.



# Avtomobil qaçıran şəxs tutuldu



Bakı şəhər sakini E.Xəlilinin "Mercedes" markalı avtomobilini qaçırmaqda şübhəli bilinən K.Əliyev avtomobillə birgə saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Nəsimi RPİ-nin 21-ci Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini E.Xəlili oktyabrın 16-dan 18-dək olan müddətdə Füzuli küçəsindən "Mercedes" markalı avtomobilinin qaçırıldığını bildirib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini K.Əliyev oktyabrın 18-də S.Vurğun küçəsində avtomobillə birgə saxlanılıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin materiallarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**